

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 11 - noyabr 2019



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

**№ 11 - noyabr 2019**



TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**





**Qaynar xətt**
**539-76-75**


# Mündəricat



## RƏSMİ MƏLUMAT


TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı olub ........4
“Ədliyyə işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........I7
“Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........7




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Ədliyyə işçilərinin peşə bayramı günü geniş qeyd olunub ........8
Fikrət Məmmədov. Azərbaycan ədliyyəsinin müasir inkişaf dövrü ........9
Ədliyyə orqanlarına qulluğa yeni qəbul olunan bir qrup hüquqşünaslarla görüş ........16
"Ədliyyə sahəsində rəqəmsal transformasiya və innovasiyalar" mövzusunda ictimai təqdimat ........17
Ədliyyə Nazirliyində Avropa İttifaqının və diplomatik korpusun təmsilçiləri ilə görüş ........19
Ağacəkmə kampaniyası ........20
Qanvermə aksiyası, intellektual və idman yarışları ........21
Ədliyyə naziri bank sektorunun təmsilçiləri ilə görüşüb ........22
Ədliyyə naziri və nazir müavinləri regionlarda vətəndaşları qəbul ediblər ........23
Məhkəmə-Hüquq Şurasının iclası keçirilib ........24
Hakimlərin Seçki Komitəsinin məlumatları ........25
“Mübahisələrin alternativ həlli və əhaliyə hüquqi yardım göstərilməsi" layihəsinin təqdimatı olub ........26

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Ədliyyə Nazirliyinin nümayəndəsi Avropa Şurasının Ekspertlər Komitəsinin iclasında iştirak edib ........................27
"Uşaq Hüquqları Aylığı" çərçivəsində tədbirlər ........................29
Qadınlar üçün ictimai dinləmə keçirilib ........................31
Probasiya xidmətinin məsul əməkdaşları beynəlxalq tədbirlərdə iştirak ediblər ........................31
Tələbələr Probasiya xidmətinin fəaliyyəti barədə məlumatlandırılıblar ........................33
Ədliyyə Akademiyasında ........................34

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1672-VQD nömrəli Qanunu ........................36
"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1673-VQD nömrəli Qanunu ........................38
"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1677-VQD nömrəli Qanunu ........................38
"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Qərarı ........................40

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1850 Tiraj:1100 ədəd




# TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı olub

**Noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Əvvəlcə Cənub Qaz Dəhlizinin ən mühüm seqmentlərindən biri və Avropanın enerji təhlükəsizliyində mühüm amil olan TANAP - Trans-Anadolu qaz boru kəməri layihəsinin icrasına həsr olunmuş videoçarx nümayiş etdirilib.

Cənub Qaz Dəhlizinin əsas seqmenti olan TANAP Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" qaz-kondensat yatağından çıxarılan qazı avropalı istehlakçılara çatdıracaq. TANAP Türkiyənin Ərdahan vilayətinin Posof qəsəbəsindən başlayaraq qardaş ölkənin ərazisi boyunca 20 şəhərdən, 67 qəsəbə və 600 kənddən keçən və Ədirnənin İpsala qəsəbəsində Avropaya çatan 1850 kilometrlik boru kəməridir. Azərbaycan qazını Türkiyəyə və Avropaya çatdıran TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşib. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca uzanan hissəsi isə 480 kilometrdir.

TANAP layihəsi ilə bağlı Azərbaycan ilə Türkiyə arasında anlaşma memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. Layihə üzrə yekun investisiya qərarı isə 2013-cü il dekabrın 17-də qəbul edilib. 2015-ci ildə Azərbaycan və Türkiyə Prezidentlərinin iş-




tirakı ilə Qarsda keçirilən təməlqoyma mərasimindən sonra boru kəmərinin inşasına başlanılıb.

Boru kəmərinin quru hissəsinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. TANAP-dan Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir.

"Enerjinin İpək yolu" adlandırılan TANAP-ın birinci fazası keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb.

Dövlətimizin başçısı mərasimdə çıxış edərək dörd il bundan əvvəl birlikdə təməli qoyulan TANAP-ın Avropa sərhədinə çatması münasibətilə təbrikini ifadə edib, TANAP-ın ömrünün uzun olacağına, Türkiyə və Azərbaycan xalqlarına, digər qonşu xalqlara fayda və tərəqqi verəcəyinə əminliyini bildirib.

Türkiyə və Azərbaycanın birgə siyasi iradəsi nəticəsində TANAP-ın ərsəyə gəlməsini Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz boru xətlərinin istismara verilməsi ilə mümkün olduğunu qeyd edən Prezident İlham Əliyev vurğulayıb ki, TANAP Cənub Qaz Dəhlizinin bir hissəsidir. Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir, maliyyə dəyəri 38 milyard dollardır və dörd layihədən ibarətdir. Onlardan üçü - "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri istifadəyə verilib, bu gün isə TANAP tam istifadəyə verilir. Dördüncü layihə olan TAP-ın icrası artıq 90 faizi keçib.

Dövlətimizin başçısı Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının gündən-günə möhkəmləndiyini vurğulayaraq dünyada ölkələrimiz qədər bir-birinə yaxın ikinci belə ölkələr tanımadığını qeyd edib, ticarət dövriyyəsinin artmasını statistik göstəricilərlə ifadə edib, Türkiyənin Prezident Ərdoğanın liderliyi sayəsində həm iqtisadi, həm də siyasi sahədə böyük uğurlara imza atdığını vurğulayıb.

Azərbaycan Prezidenti çıxışında bildirib ki, TANAP və Cənub Qaz Dəhlizi, eyni zamanda, enerji təhlükəsizliyi layihəsidir. Bütün bu layihələr bölgədəki sabitliyi möhkəmləndirir. Dövlətimizin başçısı bundan sonra da birgə həyata keçiriləcək bütün layihələrin TANAP, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-




Tbilisi-Qars kimi uğurlu olacağına, Türkiyə və Azərbaycanın birlikdə gələcəyə inamla addımlayacağına əminliyini söyləyib.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək, Cənub Qaz Dəhlizi layihəsinin bel sütununu təşkil edən Trans-Anadolu təbii qaz boru kəməri - TANAP-ın Avropa ilə birləşən hissəsinin xeyirlərə səbəb olmasını diləyib, bu gün ölkələrimiz və bölgəmiz üçün həqiqətən də tarixi bir ana şahidlik edildiyini bildirib. Qeyd edib ki, TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya - TAP xəttinə birləşir və oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır.

Bu layihənin hər şeydən əvvəl ölkələrimiz arasındakı köklü dostluğun rəmzi olduğunu vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan TANAP-ın bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bildiyini söyləyib və bununla bağlı atılan mühüm addımları xatırladıb. Bildirib ki, bu layihə ilə sahib olduğumuz zənginlikləri öz vətəndaşlarımızın, onlarla yanaşı, bütün bölgə xalqlarının, bütün insanlığın xidmətinə verməklə bağlı iradəmizi bir daha ortaya qoyduq. Biz TANAP ilə ölkəmizin enerji ehtiyacını təmin etməklə yanaşı, Avropanın enerji təhlükəsizliyinə də töhfə verməyi hədəflədik.

Türkiyə Prezidenti həmçinin, Yaxın Şərqin on illər boyunca qeyri-sabitliklə mübarizə aparmasından, artan əhali və böyüyən iqtisadiyyat nəticəsində enerjinin çox ciddi bir qlobal məsələ olmasından bəhs edib, strateji mövqeyi ilə enerjini hasil və istehlak edən ölkələrin tam qovuşuğunda yerləşən Türkiyənin Avropanın dördüncü, dünyanın isə 18-ci ən böyük təbii qaz bazarı olduğunu, ölkəsində qazlaşdırma ilə bağlı görülən işləri diqqətə çatdırıb.

Bildirib ki, TANAP ölkəmizin sülhpərvər baxışının konkret nümunəsidir. Dünya gündəmini ticarət müharibələrinin, terrorun, etirazların, qeyri-sabitliyin zəbt etdiyi bir dövrdə biz bu gün Avropa ilə Asiyanı TANAP vasitəsilə birləşdiririk. Buradan bölgəmizlə yanaşı, bütün dünyaya əməkdaşlıq və tərəfdaşlıq mesajları veririk. Türkiyəni üç qitənin enerji və ticarət mərkəzinə çevirmək yolunda yeni bir addım atırıq.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstanın Baş Naziri Georgi Qaxariya və digər rəsmi şəxslərin iştirakı ilə TANAP kəmərini TAP kəməri ilə birləşdirilməsi mərasimi olub.

Mərasim xatirə şəklinin çəkdirilməsi ilə başa çatıb.



# Ədliyyə işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1918-ci il 22 noyabr tarixli qərarı ilə Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq olunmasını əsas tutaraq qərara alıram:

1. Hər il 22 noyabr Azərbaycan Respublikası ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 noyabr 2000-ci il
N 566



# Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin rəisi Akşin Vaqif oğlu Ziyadova III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti rəisinin müavini Orxan Əziz oğlu Qasımova ədliyyə general-mayoru ali xüsusi rütbəsi verilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 noyabr 2019-cu il

# Ədliyyə işçilərinin peşə bayramı günü geniş qeyd olunub





**Ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə təsis edilmiş 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü ədliyyə orqanlarında və məhkəmələrdə böyük ruh yüksəkliyi ilə geniş qeyd olunur.**

Zəngin tarixi yol keçən Azərbaycan ədliyyəsinin yaranmasından 101 il ötür. Ulu Öndərin qayğısı ilə təkmil bir struktur kimi formalaşaraq inkişaf edən Ədliyyə Nazirliyi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində müasirləşir, yeni-yeni nailiyyətlərə imza atır.

Bayram ərəfəsində ölkə Prezidenti tərəfindən ədliyyə işçilərinin ali xüsusi rütbələrə layiq bilinməsi dövlətimizin ədliyyə sisteminə göstərdiyi diqqət və qayğının əyani təzahürüdür.

Əlamətdar gün münasibətilə respublika ədliyyə nazirinin mətbuatda Azərbaycan ədliyyəsinin müasirləşdirilməsi üzrə görülən məqsədyönlü işlər barədə geniş məqaləsi dərc olunub. Həmçinin, Azərbaycan ədliyyəsinin şanlı tarixinə və inkişaf dövrlərinə nəzər salınaraq ədliyyə işçiləri və hakimlər tərəfindən silsilə çıxışlar edilib.

Bayramla əlaqədar ədliyyə orqanlarında və məhkəmələrdə çoxsaylı tədbirlər təşkil edilib, o cümlədən ənənəvi olaraq ədliyyə veteranlarına baş çəkilib, böyük bir qrup gənc qulluğa qəbul olunub və onlarla nazirliyin rəhbərliyinin görüşü keçirilib. Eyni zamanda, könüllülərin ədliyyə tarixi və digər muzeylərlə tanışlığı təşkil olunub, ağacəkmə və qanvermə aksiyaları, kütləvi idman və intellektual yarışlar, "açıq qapı" günləri və digər silsilə bayram tədbirləri keçirilib. Həmçinin nazirliyin aparatında əməkdaşlar üçün müasir standartlara uyğun yenidən təmir olunmuş yeməkxana istifadəyə verilib.

Peşə bayramlarını iftixar hissi ilə qeyd edən ədliyyə işçiləri və hakimlər noyabrın 22-də Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək, xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə əklil qoyublar. Həmçinin, akademik Zərifə xanım Əliyevanın məzarı önünə gül dəstələri düzülüb, Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının əziz xatirəsi anılıb.

Sonra Ədliyyə Nazirliyində təntənəli mərasim keçirilib. Əvvəlcə əbədiyaşar liderimizin nazirlikdəki büstü önünə tər çiçəklər qoyulub.

Tədbirdə ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Ali Məhkəmənin sədri Ramiz Rzayev, Baş prokuror Zakir Qaralov, nazirliyin kollektivi, vətəndaş cəmiyyəti və media nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan ədliyyəsinin müasir fəaliyyətinə həsr olunmuş video-çarx nümayiş etdirilib.

Peşə bayramı günü münasibətilə ədliyyə sahəsində çalışan bütün işçiləri təbrik edən nazir F.Məmmədov Azərbaycan ədliyyəsinin tarixindən və inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ədliyyə sisteminə göstərdiyi diqqət və qayğıdan bəhs edib,






möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı sosial-iqtisadi tərəqqisini, dünyada ən islahatçı dövlətlərdən olduğunu vurğulayıb, ölkəmizin hərtərəfli inkişafında və dünyada tanıdılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mühüm xidmətlərini qeyd edib.

Nazir Azərbaycan ədliyyəsinin davamlı inkişafını təmin edən islahatlardan və yeniliklərdən bəhs edib, dövlət başçısının bu ilin aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanının ədliyyə və məhkəmə sistemi üçün mühüm "yol xəritəsi" olduğunu bildirib.

Sonra dövlət başçısının Sərəncamı ilə ali xüsusi rütbələrə layiq bilinmiş ədliyyə işçilərinə yeni rütbələrin paqonları təntənəli təqdim olunub. Ölkə Prezidentinin etimadı ilə rəhbər vəzifələrə yenicə təyinat almış nazirliyin baş idarə və idarə rəislərinə xidməti vəsiqələr verilib. Həmçinin ədliyyə nazirinin əmrləri ilə fəaliyyətində fərqlənmiş bir qrup əməkdaş mükafatlandırılıb.

Bayram münasibətilə nazirlikdə, ədliyyə orqanlarında, həmçinin məhkəmələrdə keçirilən tədbirlərdə Azərbaycan ədliyyəsinin tarixi inkişaf yoluna nəzər salınıb, dövlət başçısının rəhbərliyi ilə aparılan mütərəqqi islahatlardan danışılıb, ədliyyə orqanlarının qanunun aliliyinin və insan hüquqlarının qorunmasında mühüm fəaliyyəti qeyd olunub, ədliyyə işçilərinə xoş arzular ifadə olunub.

Ədliyyə işçiləri Ulu Öndərin müəyyən etdiyi və uğurla həyata keçirilən dövlətçilik amallarına daim sadiq qalaraq ölkəmizin hərtərəfli tərəqqisi naminə möhtərəm Prezidentimizin ətrafında sıx birləşərək üzərlərinə düşən vəzifələri bundan sonra da böyük məsuliyyət və şərəflə yerinə yetirəcəklərini söyləyiblər.

# Azərbaycan ədliyyəsinin müasir inkişaf dövrü

**Fikrət MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının ədliyyə naziri,**
**Məhkəmə-Hüquq Şurasının sədri**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə 1918-ci ildə Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi tarix-22 noyabr Ədliyyə işçilərinin peşə bayramı günü təsis olunaraq artıq 20-ci ildir ki, yüksək sevinc hissi ilə qeyd olunur.

Ötən il Azərbaycan ədliyyəsinin 100 illik yubileyinin böyük ruh yüksəkliyi və təntənə ilə geniş qeyd olunması ilə yadda qaldı. Bu münasibətlə mühüm beynəlxalq konfrans keçirilərək ədliyyənin şanlı tarixinə və keçdiyi inkişaf yoluna nəzər salındı. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ədliyyə işçiləri və hakimlərə müraciəti və böyük bir qrup əməkdaşları dövlət mükafatları ilə təltif etməsi bu yubileyi daha da əlamətdar etdi.

Məhkəmə hakimiyyətinin fəaliyyətinə mühüm əhəmiyyət verən dövlət başçısı tərəfindən möhtəşəm bayram günlərində Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi üçün yeni müasir binanın açılışı dərin minnətdarlıq hissi ilə qarşılandı.

Eyni zamanda, ölkə Prezidentinin 2018-ci il dekabrın 18-də təsdiq etdiyi "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üzrə" Dövlət Proqramı ilə ədliyyə və məhkəmə sisteminin inkişafı üçün gələcək 5 il ərzində yeni hədəflər müəyyən olundu.

2019-cu il də Azərbaycan ədliyyəsi üçün əlamətdar olmuş, ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar ədliyyə və məhkəmə-hüquq sisteminin yeni mərhələdə inkişafına rəvac vermişdir. "İslahatlar dərinləşəcək, islahatlara alternativ yoxdur", - deyən dövlətimizin başçısı cənab İlham Əliyevin aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ədliyyə və məhkəmə sisteminin inkişafının mühüm "yol xəritəsi" olmaqla proqram xarakteri daşıyır.

Fərman iqtisadi artımda mühüm əhəmiyyət kəsb edən sahibkarlığın inkişafı, ədliyyə fəaliyyətinin müxtəlif istiqamətləri üzrə işin təkmilləşdirilməsi, məhkəməyə müraciət imkanlarının genişləndirilməsi, hakimlərin fəaliyyətinə müdaxilələrin qarşısının alınması, məhkəmə icraatının səmərəliliyinin artırılması və süründürməçiliyin aradan qaldırılması, hakimlərin iş yükünün azaldılması və s. ilə bağlı mühüm vəzifələr qoymuşdur.



Dövlət başçısının Fərmanının ictimai əhəmiyyəti nəzərə alınaraq cəmiyyətin müxtəlif təbəqələri, o cümlədən hüquq ictimaiyyəti, sahibkarlar, biznes dairələri, vətəndaş cəmiyyəti institutları, diplomatik korpus nümayəndələri üçün, həmçinin bölgələrdə Ədliyyə Nazirliyi tərəfindən digər aidiyyəti qurumlarla birgə ictimai müzakirələr, təqdimatlar və s. tədbirlər keçirilmiş, 1.000-ə yaxın maarifləndirmə işləri aparılmışdır.

Fərmanın icrası ilə bağlı qısa müddətdə kommersiya məhkəmələrinin təşkili, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, məhkəmə qərarlarının icrası işinin və məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən alternativ icra və özəl ekspertizanın tətbiqi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması və digər məsələlərlə bağlı 40-dək normativ aktın layihəsi işlənib hazırlanmışdır.

Qeyd olunmalıdır ki, yeni qanun layihələri hazırlanarkən statistik məlumatlar və mövcud təcrübə təhlil edilmiş, qabaqcıl beynəlxalq təcrübə öyrənilmiş, həmçinin ictimaiyyətin təklifləri və rəyləri nəzərə alınmışdır.

Artıq ölkəmizin məhkəmə sisteminin daha səmərəli fəaliyyətinin təmin edilməsində mühüm rol oynayacaq bir sıra yeni qanunlar dövlət başçısının qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş, habelə digər mühüm layihələr paketi isə Milli Məclisin birinci oxunuşda müzakirəsindən keçmişdir.

Qəbul olunmuş yeni qanunlara əsasən sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən və çevik baxılmasını təmin etmək məqsədilə yeni ixtisaslaşmış məhkəmələr təsbit olunmuş, ölkə Prezidentinin 19 iyul 2019-cu il tarixli Sərəncamı ilə mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəkidə yeni Kommersiya və ayrıca İnzibati məhkəmələr yaradılmışdır.

2020-ci ilin yanvar ayının 1-

dən fəaliyyətə başlayacaq həmin məhkəmələrin fəaliyyəti və gələcək iş həcmi üzrə təhlillər aparılaraq ərazi yurisdiksiyası və ştat sayı müəyyən olunmuşdur. Onların müvafiq bina, avadanlıq, digər təşkilati-texniki vasitələrlə təmin edilməsi, məhkəmə aparatlarının formalaşdırılması üzrə tədbirlər görülür.

Eyni zamanda, dövlət başçısı tərəfindən 4 milyondan çox vətəndaşın sosial rifahının yüksəldilməsinə xidmət edən böyük sosial paketin tərkib hissəsi olaraq hakimlərin əməkhaqları əhəmiyyətli dərəcədə artırılmışdır.

Qeyd edilməlidir ki, ölkəmizdə hakimlərin sayı əhaliyə nisbətdə Avropa dövlətləri ilə müqayisədə çox aşağıdır. Belə ki, Avropa dövlətlərində hər 100 min nəfərə 20-dən artıq hakim düşdüyü halda Azərbaycanda bu göstərici cəmi 6 təşkil edirdi.

Eyni zamanda mülki xarakterli işlər kifayət qədər çox olmaqla birinci instansiya məhkəmələrində onların sayı bəzi illərdə 470.000-ə çatmışdır. Hazırda 1 hakim hər ay orta hesabla 100-dən çox işə baxır. Təbii ki, belə ağır iş yükü müddətlərə və keyfiyyətə mənfi təsir göstərir.

Bu baxımdan Fərmanla hakimlərin sayının mövcud korpusun üçdə biri qədər - 200 vahid artırılması mühüm əhəmiyyət kəsb etmişdir. Həmin ştatların komplektləşdirilməsi, heç şübhəsiz ki, məhkəmələrdə işlərə vaxtında və keyfiyyətlə baxılmasına xidmət edəcəkdir.

Bununla əlaqədar Məhkəmə-Hüquq Şurası tərəfindən yeni ayrılan ştatların məhkəmələr üzrə bölüşdürülməsinə dair müvafiq qərar qəbul olunmuş, hakimlərin seçim qaydası təkmilləşdirilərək bu prosesdə çeviklik artırılmışdır. Artıq bir qrup hakimliyə namizədlərlə test üsulu ilə və yazılı imtahanlar keçirilmiş, 81 nəfər namizəd növbəti mərhələyə - şifahi imtahana vəsiqə qazanmışdır. Həmin hakimliyə namizədlərlə noyabr ayının 15-dən şifahi imtahanlara başlanılmışdır.

Bununla yanaşı, hakimliyə namizədlərin sənədlərinin qəbulu davamlı xarakter almışdır. Və sənədlərini təqdim etmiş 250-dək hüquqşünasla sabah növbəti test imtahanı keçiriləcəkdir. Müasir texnologiyalar tətbiq edilməklə təşkil olunan və onlayn qaydada canlı yayımlanan imtahanda namizədlər sualları kompüter vasitəsilə, fərdi qaydada cavablandıracaq və nəticələr dərhal elan olunacaqdır.

Hakimlərin iş yükünün digər vasitələrlə azaldılması məsələsi də daim diqqətdə saxlanılır. Cari ildən qanunvericiliyə edilmiş dəyişikliklərlə əlaqədar məhkəmə baxışının tezliyinin təmin olunması məqsədilə kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat proseduru təsbit olunmuş, iqtisadi işlər üzrə icraatın yalnız elektron qaydada - "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılması və məhkəmə proseslərinin fasiləsiz audio-video yazılışı təmin edilmiş, mübahisəsiz pul və əmlak tələbləri ilə bağlı işlərin məhkəmədən kənar, elektron qaydada notariusun icra qeydi ilə asan həlli imkanı yaradılmış, habelə icra icraatı üzrə xitam və dayandırma səlahiyyətləri icra məmurlarına verilmişdir.

Fərmanın icrası çərçivəsində mübahisələrin məhkəmədən kənar həllində, başqa sözlə, məhkəmələrin iş həcminin azaldılmasında mühüm vasitə olan mediasiyanın respublikamızda tətbiqi ilə bağlı Avropa İttifaqı ilə birgə yeni layihənin icrasına başlanılmış, növbəti ildən tətbiq ediləcək "Mediasiya haqqında" Qanunun implementasiyası ilə əlaqədar nazirlik tərəfindən çoxsaylı normativ sənəd layihələri hazırlanaraq qəbul olunmuşdur. Hazırda Mediasiya Şurasının yaradılması, mediasiya üzrə təlimçilərin, mediatorların hazırlanması, hakimlərin bu sahədə təlimatlandırılması, əhatəli maarifləndirmə tədbirlərinin təşkil olunması və s. ilə bağlı işlər davam etdirilir.

Həmçinin, ölkəmizdə səmərəli beynəlxalq arbitraj prosedurlarının təşviqi ilə bağlı Avropa İttifaqı ilə birgə "Biznes mühitinin inkişafı ilə əlaqədar normativ-hüquqi bazanın dəstəklənməsi" layihəsi çərçivəsində beynəlxalq təcrübə nəzərə alınmaqla yol xəritəsi hazırlanmışdır.

Bundan əlavə, hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilələrin və digər neqativ halların aradan qaldırılması və s. məsələlər üzrə mühüm qanunvericilik və institusional tədbirlər həyata keçirilmiş, o cümlədən Fərmanla qarşıya qoyulmuş məsələlərin icrası məqsədilə Məhkəmə-Hüquq Şurasında "qaynar xətt", monitorinq sektorları yaradılmışdır. "Qaynar xətt"ə daxil olan aidiyyəti müraciətlər dərhal yerində araşdırılır, monitorinqlər aparılır, vətəndaşların bilavasitə məhkəmələrdə qəbulları keçirilir.

Belə ki, Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurası tərəfindən ötən qısa müddət ərzin-

də 50-ə yaxın məhkəmədə monitorinqlər aparılmış, yol verilən pozuntular 100-dən artıq hakimin və məhkəmə sədrinin diqqətinə çatdırılmış, daha kobud pozuntularla bağlı isə 41 hakim barəsində intizam icraatlarına baxılmış, o cümlədən 6 nəfər tutduğu vəzifədən azad olunmuş, 2 nəfərin hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilmiş, digərləri barəsində müxtəlif intizam tənbehi tədbirləri görülmüşdür.

Eyni zamanda, Fərmanda ədalət mühakiməsinin həyata keçirilməsində müstəsna əhəmiyyət kəsb edən nazirliyin icra xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar müəyyən olunmuşdur. Bu sahədə qarşıya qoyulmuş vəzifələr bütün yerli icra qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilmiş ümumrespublika müşavirəsində müzakirə olunmuş, məhkəmə qərarlarının icrasının səmərəliliyinin artırılması, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, süründürməçilik və sui-istifadə hallarının qarşısının qətiyyətlə alınmasına dair konkret addımlar atılmışdır.

Həmçinin, məhkəmə qərarlarının icrası sahəsində fəaliyyəti tənzimləyən normativ hüquqi aktların sistemləşdirilməsi məqsədilə ilk dəfə olaraq İcra Məcəlləsi işlənib hazırlanmışdır.

Bununla yanaşı, dövlət başçısının iqtisadi müşavirədə bankların iqtisadi artımın maliyyələşməsində fəal iştirakı ilə bağlı tapşırıqlarından irəli gələn vəzifələrə dair bank sektoru ilə Ədliyyə Nazirliyində "dəyirmi masa" keçirilərək bankların hüquqlarının məhkəmə müdafiəsi və icra sahəsində problemlər müzakirə olunmuş, birgə işçi qrupları yaradılaraq mövcud və qarşıya çıxan məsələlərin operativ həlli ilə bağlı tədbirlər görülür.

2019-cu ilin 9 ayında icra xidməti tərəfindən 780 minə qədər icra işinin yarıdan çoxunun icrası təmin edilmiş, fiziki və hüquqi şəxslərə 690 milyon manatdan artıq vəsait ödətdirilmişdir. Qalan işlərin icrası üzrə tədbirlər davam etdirilir.

İcra haqqında qanunvericiliyin tələblərini pozan 3.700-ə yaxın şəxs inzibati məsuliyyətə cəlb olunmuş, o cümlədən 2.000 nəfər məhkəmələr tərəfindən inzibati qaydada həbs edilmiş, məhkəmə qərarlarının icrasından qəsdən yayınan 340 nəfər barəsində cinayət işi başlanılmışdır. Həmçinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması təcrübəsi məhkəmə qərarlarının icrasının təmin olunmasına öz müsbət təsirini göstərmiş, 10 mindən çox borclu tərəfindən məhkəmə qərarları icra edildiyinə görə onların üzərindən belə məhdudiyyət götürülmüşdür.

Ədliyyə Nazirliyi tərəfindən ədalət mühakiməsi əleyhinə olan və bəzi digər cinayətlər üzrə bu ilin 9 ayı ərzində 430 cinayət işinin istintaqı tamamlanmış və həmin işlər üzrə fiziki və hüquqi şəxslərə vurulmuş ziyanın yarıdan çoxu ödətdirilmişdir.

Fərmanda qoyulmuş vəzifələrin həyata keçirilməsi məqsədilə, həmçinin icra xidmətində iş həcminin ilbəil kəskin artması ilə əlaqədar məhkəmələrin və digər orqanların qərarlarının icrasının alternativ mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı müxtəlif dövlətlərin qanunvericiliyi öyrənilmiş, nazirliyin nümayəndə heyəti Fransa, Niderland, Litva, Bolqarıstan və Gürcüstanda tətbiq edilən özəl icra modelləri ilə bilavasitə yerində tanış olmuşdur. Hazırda ölkəmiz üçün uyğun olan özəl icra modelinin tətbiqi üzrə tədbirlər görülür.

Qeyd olunmalıdır ki, ölkə Prezidentinin 2017-ci il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının icrası çərçivəsində görülən tədbirlər öz real bəhrəsini verir, artıq azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinə üstünlük verilərək onların səmərəli icrası təmin edilir. Belə ki, ötən dövrdə cinayət qanunvericiliyinin dekriminallaşması nəticəsində 6.400-ə yaxın məhkum cəzadan tamamilə azad olunmuş və ya cəzası yüngülləşdirilmiş, istintaq təcridxanalarına daxil olan həbs edilmiş şəxslərin sayı isə 20 faizədək azalmışdır.

Eyni zamanda, azadlıqdan məhrumetməyə alternativ cəzaların, o cümlədən azadlığın məhdudlaşdırılması cəzasının icrasında elektron nəzarət vasitələrinin tətbiqi əhəmiyyətli dərəcədə genişlənərək bu günədək 2.000-dən artıq məhkuma elektron qolbaqlar tətbiq edilmişdir.

Fərmanla isə dövlətimizin başçısının humanistliyinin növbəti təzahürü olaraq cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılmasına dair tədbirlərin davam etdirilməsi tapşırılmış, bununla əlaqədar qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə Cinayət, Cinayət-Prosessual, İnzibati Xətalar və Cəzaların icrası məcəllələrinə bütövlükdə 400-ə yaxın dəyişikliklərin edilməsi, o cümlədən bir çox əməl-

lərin dekriminallaşdırılması, alternativ cəzalardan daha geniş istifadə olunması və yeni mütərəqqi hüquq institutlarının tətbiqi məsələləri ilə bağlı qanun layihələri hazırlanmışdır.

Fərmanda mühüm yeniliklərdən biri də ekspertiza fəaliyyətinin alternativ mexanizmlərinin yaradılması, o cümlədən ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsidir. Bununla bağlı qanunvericilik və qabaqcıl təcrübələr nəzərdən keçirilmiş, ekspert rəyinin verilməsi müddətlərinin dəqiqləşdirilməsi, məhkəmə prosesi iştirakçılarının ekspertizanın aparılması ilə bağlı hüquqlarının genişləndirilməsi və digər məsələlərə dair layihələr hazırlanmışdır.

Milli Məclisin müzakirəsində olan həmin layihələrə əsasən ölkəmizdə yeni özəl məhkəmə ekspertizası institutu yaradılır və bu fəaliyyətlə məşğul olmaq üçün irəli sürülən tələblər müəyyən edilir. Həmçinin, mülki işlər, inzibati mübahisələr və inzibati xətalara dair işlər üzrə məhkəmə prosesinin iştirakçıları məhkəmə ekspertizası fəaliyyətini həyata keçirən dövlət orqanlarına və ya özəl məhkəmə ekspertlərinə öz təşəbbüsü ilə və öz hesabına ekspertizanın aparılmasını sifariş edə bilməsi və həmin ekspertizanın nəticələrini məhkəməyə təqdim etməsi nəzərdə tutulur.

Bununla yanaşı, ölkə Prezidentinin məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq ekspert araşdırmalarının keyfiyyətinin və operativliyinin, iqtisad ekspertizaları sahəsində işin səmərəliliyinin artırılması məqsədilə nazirliyin Məhkəmə Ekspertizası Mərkəzinin strukturu təkmilləşdirilmiş, ştat sayı artırılmış, ekspertiza fəaliyyətinə əlçatanlığın asanlaşdırılması, yerli məhkəmə və hüquq-mühafizə orqanlarına köməklik məqsədilə Mərkəzin əlavə yeni - Lənkəran regional bölməsi yaradılmışdır.

Məhkəmə ekspertizası mərkəzi tərəfindən cari ildə 41 ekspert ixtisası üzrə 24.000-dək iş icra olunmuş və ekspertlər 675 mindən çox suala cavab verməklə qaldırılmış məsələlərin 99.5 faiz həllinə nail olmuşlar.

Nazirliyin digər fəaliyyət istiqamətləri üzrə tədbirlər, ədliyyə orqanlarının qarşısında duran vəzifələrin icrası 2019-cu ildə də diqqətdə saxlanılmışdır.

Geniş qanunyaradıcı fəaliyyətdə aktiv iştirak edən Ədliyyə Nazirliyi tərəfindən cari ilin 9 ayında ictimai həyatın müxtəlif sahələri üzrə 1.266 normativ hüquqi akt layihəsi hazırlanmış, bundan 2 dəfədən çox layihə isə ekspertizadan keçirilmiş, Hüquqi Aktların Dövlət Reyestrinə 2.200-dən artıq normativ akt daxil edilmişdir. Həmçinin, əhalinin təmənnasız istifadəsinə verilmiş milli qanunvericiliyin e-qanun.az və müvafiq reyestrin huquqiaktlar.gov.az internet saytlarına daxil olmaların sayı ötən ilin eyni dövrü ilə müqayisədə 44% artaraq 1,34 milyonu ötmüşdür.

Eyni zamanda, iqtisadi proseslərin və hüquq münasibətlərinin tənzimlənməsində mühüm rol oynayan notariat orqanlarının fəaliyyətinin və infrastrukturunun müasirləşdirilməsi üzrə tədbirlər görülmüş, ölkəmizdə ilk dəfə olaraq notariusların müstəqil özünüidarə orqanı olan Notariat Palatası yaradılmış və tərkibi formalaşdırılaraq fəaliyyətə başlamışdır.

Notariuslar tərəfindən 2019-cu ilin 9 ayı ərzində aparılmış əməliyyatların sayı 30% artaraq 3,9 milyona çatmışdır ki, bunun da 97%-i ölkədə geniş tətbiq olunan xüsusi notariat institutu tərəfindən həyata keçirilmişdir. Həmçinin, qeydiyyat orqanlarında 226.500-dən çox vətəndaşlıq vəziyyəti aktı rəsmiləşdirilmiş, doğumun sayı 107 mini, nikahın sayı isə 47 mini ötmüşdür.

Ölkə başçısının təşəbbüsü ilə yaradılaraq dünyada Azərbaycan brendi kimi məşhurlaşmış və bu günədək 34 milyona yaxın müraciətlə bağlı insanların faydalandığı ASAN xidmət mərkəzlərində bu ilin 9 ayında verilmiş 3,2 milyona yaxın sənədlərin 45%-i məhz həmin mərkəzlərdə fəaliyyət göstərən notariat və qeydiyyat orqanlarının payına düşmüşdür.

Eyni zamanda, vətəndaş cəmiyyətinin inkişafına dövlət dəstəyinin təzahürü olaraq nazirlik tərəfindən 9 ayda 145 qeyri-hökumət təşkilatı dövlət qeydiyyatına alınmışdır. Hazırda qeyri-kommersiya təşkilatlarının ümumi sayı 4.500-ə, mətbu nəşrlərin sayı isə 5.300-ə çatmışdır.

Bu il 20 illiyi qeyd olunan və yerli demokratiyanın inkişafında mühüm rol oynayan bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunması, onlara mütəmadi metodoloji yardımın göstərilməsi, səmərəli inzibati nəzarətin həyata keçirilməsi sahəsində nazirlik tərəfindən ardıcıl tədbirlər görülmüşdür. Cari ildə 67 mindən çox bələdiyyə aktı hüquqi ekspertizadan keçirilmiş, 1.952 aktın qanunamüvafiq olmadığı müəyyən edilərək onlar ləğv edilmiş və ya dəyişdirilmiş, habelə qanunsuz verilmiş

torpaq sahələri geri qaytarılmışdır. Bələdiyyələr tərəfindən yol verilmiş cinayət xarakterli pozuntularla bağlı 24 fakt üzrə materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilmişdir.

Bununla yanaşı, bələdiyyələrə 9.000-ə yaxın tövsiyə verilmiş, 25 metodik vəsait hazırlanmış, 8.300-ə yaxın bələdiyyə üzvü və qulluqçusu maarifçilik tədbirlərinə, o cümlədən Ədliyyə Akademiyasında təşkil edilmiş kurslara cəlb olunmuşdur.

Penitensiar xidmətin fəaliyyətinin təkmilləşdirilməsi, məhkumların hüquqlarının etibarlı qorunması, onların saxlanma şəraitinin, islah işinin təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilmiş, cəzaçəkmə müəssisələrində ictimai faydalı əməyə cəlb olunan məhkumların sayı artaraq 5.800-ü ötmüş, habelə əməliyyat-rejim fəaliyyəti nəticəsində 524 cinayət hadisəsinin qarşısı alınmışdır.

Ulu Öndər tərəfindən təməli qoyulmuş humanizm siyasətinə uyğun olaraq möhtərəm Prezidentimizin martın 16-da imzaladığı əfv Sərəncamı ilə 431 nəfər şəxsin əfv olunması, həmçinin nazirlik tərəfindən şərti olaraq vaxtından əvvəl azad edilməsi və cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunması institutunun səmərəli tətbiqi məhkumların sosial reabilitasiyasına böyük imkan yaratmışdır.

Məhkumlara yüksək keyfiyyətli tibbi xidmətin göstərilməsi daim diqqətdə saxlanılmış, bu sahədə ölkəmizin nailiyyətlərindən son illər digər dövlətlər tərəfindən bəhrələnilərək artıq bəzi ölkələrdə Azərbaycanın penitensiar müəssisələrdə vərəmlə mübarizədə müsbət təcrübəsinə uyğun modellərin tətbiqinə başlanılmışdır. Bu məqsədlə ötən dövrdə Qərbi Avropa, Asiya, Afrika, Mərkəzi Amerika və MDB coğrafiyası üzrə 20 dövlətin 230-dək nümayəndələri nazirliyin İxtisaslaşdırılmış Müalicə Müəssisəsinin nəzdində fəaliyyət göstərən beynəlxalq statusa malik Təlim Mərkəzində treninq keçmişlər.

Ədliyyənin fəaliyyət istiqamətləri üzrə həyata keçirilən tədbirlər, həmçinin kadr korpusunun təkmilləşdirilməsi ilə müşayiət olunur. Son 15 ildə şəffaf müsabiqələr əsasında tam əksəriyyətini gənclər təşkil edən 2900-dək şəxs qulluğa qəbul olunmuş və onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər. Cari ildə isə qulluğa qəbulla bağlı iki dəfə müsabiqə keçirilmiş, 65 namizəd müsabiqənin bütün mərhələlərindən, o cümlədən Ədliyyə Akademiyasında icbari təlimdən uğurla keçərək bu ərəfədə ədliyyə orqanlarına qulluğa qəbul olunmuş və onlarla nazirliyin rəhbərliyinin görüşü keçirilmişdir. Ötən ay keçirilmiş test imtahanında müvəffəqiyyət qazanmış və qanunvericiliyin tələblərinə müvafiq olaraq növbəti mərhələyə buraxılmış daha 36 nəfərlə növbəti həftə söhbət aparılmasına başlanılacaqdır.

Ölkə başçısının dövlət idarəçiliyində gənc kadrların fəal iştirakı, könüllülük institutunun təşviqi ilə bağlı tapşırıqlarına uyğun olaraq ədliyyə orqanlarında gənclər geniş təmsil olunur, çoxminli ədliyyə orqanlarında çalışan əməkdaşların təxminən yarısını gənclər, qulluğa qəbul edilən yeni nəsil ədliyyə işçiləri isə nazirliyin əksər xidmətlərinin kadr korpusunun 70 faizə qədərini təşkil edir.

Eyni zamanda, gənclərdə ədliyyə sahəsində işləməyə həvəsi artırmaq, onların məşğulluğunun təmin olunmasına şərait yaratmaq məqsədilə cari ilin əvvəlindən 1.300-ə yaxın gənc könüllü ədliyyə fəaliyyətinə cəlb olunmuş və 70-ə yaxın könüllü artıq daimi işə qəbul edilmişdir.

Bu gün hüquq mühafizə orqanlarının gənc əməkdaşları dahi öndərin müstəqil Azərbaycan dövlətinə sədaqət, saflıq və yüksək mənəvi keyfiyyətlər kimi dəyərləri öz fəaliyyətlərində rəhbər tutaraq püxtələşir, onlara məsul vəzifələr etibar olunur. Ötən ay Dövlət Müstəqilliyi Günündə keçirilmiş hüquq mühafizə orqanları gənc əməkdaşlarının birinci Forumu bu orqanlarda xidmət edən gənclərin ölkənin hərtərəfli inkişafına töhfə vermək əzminin daha da yüksəldilməsinə, sabitliyin və təhlükəsizliyin, həmçinin dövlət-vətəndaş həmrəyliyinin etibarlı təmin olunması sahəsində bu orqanların qarşılıqlı fəaliyyətinin səmərəliliyinin artırılmasına xidmət etmişdir.

Ədliyyə Nazirliyi tərəfindən hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi məsələsi də daim diqqətdə saxlanılır. Cari ildə Bosniya və Herseqovina, Meksika, Bəhreyn, Misir, İraq ilə əməkdaşlığa dair müvafiq sənədlərin razılaşdırılması işi aparılmış, Səudiyyə Ərəbistanı Krallığı ilə ikitərəfli məhsuldar qarşılıqlı səfərlər həyata keçirilərək Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu və onun implementasiyası üzrə Əməkdaşlıq Proqramı imzalanmışdır.

Həmçinin cinayətkarlığa qarşı qəti mübarizədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilərək ötən ay nümayəndə heyətimizin Strasburqa səfəri zamanı Avropa Şurasının Baş katibinin iştirakı ilə ölkəmiz tərəfindən "Ekstradisiya haqqında" Avropa Konvensiyasının Dördüncü Əlavə Protokolu imzalanmışdır.

Strasburqa səfər zamanı həmçinin, Fransanın Avropa Şurası Nazirlər Komitəsində sədrliyi çərçivəsində keçirilmiş "Avropada ədalət mühakiməsinə rəqəmsal çağırışlar" mövzusunda Avropa ədliyyə nazirlərinin konfransında iştirak və çıxış edilmiş, məhkəmə-hüquq sahəsində, o cümlədən "Elektron məhkəmə" informasiya sisteminin tətbiqində Azərbaycanın təcrübəsi maraqla qarşılanmışdır.

Bununla yanaşı, nazirlik mötəbər beynəlxalq tədbirlərdə ölkəmizi layiqincə təmsil etmiş, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının illik yığıncaqlarında, BMT-nin Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Forumunda və digər tədbirlərdə fəal iştirak və çıxışlar edilmişdir.

Qeyd olunmalıdır ki, keçirilən bütün tədbirlər və aparılan müzakirələr zamanı Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər beynəlxalq ictimaiyyətin bir daha diqqətinə çatdırılmışdır.

Dövlət başçısının maksimum şəffaflığın təmin olunması, ictimai nəzarətin daha güclü olması ilə bağlı tələbləri daim diqqətdə saxlanılaraq nazirlik tərəfindən açıq hökumət prinsiplərinə, şəffaflığa, aşkarlığa, ictimai iştirakçılığa xüsusi önəm verilir. Əhalinin hüquqi maarifləndirilməsi, ədliyyə və məhkəmə sistemində həyata keçirilən mütərəqqi islahatlar və yeniliklər barədə ictimaiyyətin mütəmadi məlumatlandırılması məqsədilə nazirliyin 10 internet saytı, sosial şəbəkələrdə səhifələri interaktiv rejimdə fəaliyyət göstərir, müxtəlif mətbu nəşrlər, illik toplular çap olunur. Təkcə bu ilin 9 ayında 4.000-dən çox hüquqi maarifləndirmə tədbirləri keçirilmiş, o cümlədən ədliyyə və məhkəmə fəaliyyətinə dair brifinqlər, təqdimatlar, ictimai müzakirələr və s. təşkil olunmuşdur.

Bu gün ədliyyə sahəsində elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Belə ki, nazirlik tərəfindən elektron notariat informasiya sisteminə və aidiyyəti məlumat banklarına birbaşa çıxışı olan xüsusi elektron notariat "çanta"sı hazırlanmışdır. Həmin çanta vasitəsilə istənilən yerdə hər hansı notariat hərəkətini aparmaq və sənədləri çap edib, təqdim etmək olar. Yalnız Azərbaycanda mövcud olan və sərhəddə, hava, dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılan "Elektron Ədliyyə köşkü" vasitəsilə isə məsafədən ədliyyə xidmətlərini göstərmək mümkündür. Digər bir yenilik də "Mobil notariat" proqram təminatıdır. Telefona yüklənən həmin proqram vasitəsilə vətəndaş elektron notariat kabinetinə sahib olmaqla notariat fəaliyyəti ilə bağlı məlumatları əldə edə bilər.

Bu innovasiyalar qısa müddət ərzində tətbiq edilməsinə baxmayaraq, artıq beynəlxalq marağa səbəb olmuş və Azərbaycanın innovativ məhsullarından digər dövlətlər də bəhrələnirlər.

Sözsüz ki, Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə görülən ardıcıl və məqsədyönlü tədbirlər, əldə olunan nailiyyətlər möhtərəm Prezidentimiz cənab İlham Əliyevin güclü siyasi iradəsi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatların mühüm tərkib hissəsi olmaqla dövlət başçısının ədliyyə və məhkəmə fəaliyyətinə göstərdiyi xüsusi diqqət və qayğının real təzahürüdür.

Bu gün Azərbaycanın davamlı sosial-iqtisadi tərəqqisi ölkə başçısının rəhbərliyi ilə uğurla təmin edilir, insanların rifahının yaxşılaşmasına xidmət edən ardıcıl sosialyönümlü qərarlar qəbul olunur, ictimai həyatın bütün sahələrində mühüm nailiyyətlər qazanılır. Respublikamız mötəbər beynəlxalq forumlara və tədbirlərə yüksək səviyyədə ev sahibliyi edir, onun beynəlxalq aləmdə nüfuzu günbəgün artır, qabaqcıl dövlətlər sırasında qərarlaşır.

Azərbaycanda aparılan islahatlar və düşünülmüş iqtisadi siyasət dünyanın ən mötəbər iqtisadi qurumları tərəfindən yüksək qiymətləndirilir, Dünya Bankının "Doing Business 2020" hesabatına görə, Azərbaycan 20 ən islahatçı ölkə sırasında yer almışdır. Davos Ümumdünya İqtisadi Forumunun yeni hesabatına görə isə dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsinə görə isə 5-ci yerdədir.

Respublikamızın davamlı sosial-iqtisadi və mədəni inkişafının təmin olunmasında, mühüm sosial layihələrin, humanizm, tolerantlıq, multikulturalizm ideya və prinsiplərinin uğurla həyata keçirilməsində

ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti xüsusilə qeyd olunmalıdır.

Bütün bunlar respublikamızda hərtərəfli tərəqqinin və yüksəlişin məntiqi nəticəsi olmaqla xalqımızda yüksək iftixar hissi doğurur, hər birimizi yeni-yeni nailiyyətlərə ruhlandırır. Ulu Öndərin yüksək dövlətçilik amallarına daim sadiq qalan ədliyyə işçiləri dövlətimizin başçısının insanlara layiqli xidmət, vətəndaş məmnuniyyəti, şəffaflıq, korrupsiyanın yolverilməzliyi kimi tələblərini fəaliyyətlərində daim rəhbər tutmaqla ölkəmizin daha da qüdrətlənməsi naminə möhtərəm Prezidentimizin ətrafında sıx birləşərək üzərlərinə düşən vəzifələri bundan sonra da böyük məsuliyyət və şərəflə yerinə yetirmək əzmindədirlər.

Bu ərəfədə dövlət başçısı tərəfindən ədliyyə işçilərinin ali xüsusi rütbələrə layiq bilinməsi möhtərəm Prezidentimizin ədliyyə fəaliyyətinə yüksək diqqət və qayğısının bariz təzahürü olmaqla hər birimizdə böyük minnətdarlıq və ehtiram hissi doğurmuşdur.

Peşə bayramı günündə ədliyyə işçiləri Fəxri Xiyabana gedərək bu bayramı bizlərə bəxş etmiş müstəqil Azərbaycan dövlətinin banisi, dahi öndər Heydər Əliyevə öz əbədi ehtiramlarını bildirmiş, Şəhidlər Xiyabanında qəhrəman Vətən övladlarının xatirəsini yad etmişlər.

Həmçinin ədliyyə orqanları və məhkəmələrdə Azərbaycan ədliyyəsinin tarixi inkişaf yoluna bir daha nəzər salınmış, ədliyyə veteranları və gənclərlə görüşlər, könüllülərin ədliyyə tarixi və digər muzeylərlə tanışlığı təşkil olunmuş, ağacəkmə və qanvermə aksiyaları, kütləvi idman və intellektual yarışlar, "açıq qapı" günləri və digər silsilə bayram tədbirləri keçirilmişdir.

Fürsətdən istifadə edərək, peşə bayramı günü münasibətilə bütün ədliyyə işçilərini ürəkdən təbrik edir, onlara qanunun aliliyinin və insan hüquqlarının təmin olunması kimi gərəkli fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzulayıram.

# Ədliyyə işçilərinin peşə bayramına həsr olunmuş tədbirlər

## ◆ Ədliyyə orqanlarına qulluğa yeni qəbul olunan bir qrup hüquqşünaslarla görüş

**Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət gənclər siyasəti ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Bu gün gənclər cəmiyyət həyatının bütün sahələrində, o cümlədən dövlət idarəçiliyində aktiv iştirak edir, həmçinin ölkədə geniş vüsət alan könüllülük hərəkatının aparıcı qüvvəsi olmaqla səmərəli fəaliyyətləri ilə fərqlənirlər.**

Gənclər ədliyyə orqanlarında da geniş təmsil olunur, onların fəaliyyətinə xüsusi qayğı göstərilir. Gənclərin işlə təminatı diqqətdə saxlanılaraq ədliyyə orqanlarının hazırlıqlı, bilik və bacarıqları ilə seçilən, mənəvi və etik dəyərləri yüksək tutan işçilərlə möhkəmləndirilməsi məqsədilə qulluğa qəbul üzrə davamlı şəffaf müsabiqə və müsahibələr keçirilir. Hazırda çoxminli əməkdaşların təxminən yarısını gənclər, qulluğa qəbul edilən yeni nəsil ədliyyə işçiləri isə nazirliyin əksər xidmətlərinin kadr korpusunun 70 faizə qədərini təşkil edir.

Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın istedadlı gənclərin dəstəklənməsi, onların innovativ potensiallarının və bacarıqlarının üzə çıxarılması sahəsində uğurlu fəaliyyəti qadınların dövlət idarəetməsində də fəal iştirakına əlavə stimul verib, o cümlədən son müsabiqələr üzrə ədliyyə orqanlarına qulluğa qəbul olunanların üçdə biri qadınlar olub.

Eyni zamanda, ölkə gənclərində ədliyyə orqanlarında işləməyə həvəsi artırmaq, onların məşğulluğunun təmin olunmasına şərait yaratmaq məqsədilə fəaliyyətə könüllülərin cəlb olunması təcrübəsi genişləndirilir. Hazırda ədliyyə sistemində 600-dən çox gənc könüllü kimi fəaliyyət göstərirlər və müvafiq vakansiyaların komplektləşdirilməsi zamanı ilk olaraq onların təyinat məsələlərinə baxılır.

Ədliyyə işçilərinin peşə bayramı günü ərəfəsində qulluğa qəbul olunaraq Azərbaycanın



vəzifələrini layiqincə yerinə yetirmələri və etik davranış qaydalarına dönmədən əməl etmələri barədə göstərişlərini verib, insanlara qayğılı münasibət göstərmələrini diqqətə çatdırıb.

Namizədlərin yarıdan çoxunun əvvəlki müsabiqələrdə dəfələrlə iştirak etmələrini və əzmkarlıq göstərərək bilik səviyyələrini artırmaqla hazırda uğur qazanmalarını onların ədliyyə orqanlarına inamının təzahürü kimi yüksək qiymətləndirib.

Çıxış edən hüquqşünaslar peşə bayramı ərəfəsində qulluğa qəbul olunmalarından yüksək qürur hissi keçirdiklərini bildirib, müsabiqə müddətində ədliyyə könüllüsü kimi fəaliyyətə cəlb olunmalarının əhəmiyyətini xüsusi qeyd ediblər. Ədliyyə qulluqçusu olaraq ölkə başçısının ətrafında sıx birləşərək ölkəmizin hərtərəfli tərəqqisinə və qüdrətlənməsinə sədaqətlə xidmət edəcəklərini vurğulayıb, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına, vəzifələrini vicdanla yerinə yetirəcəklərinə, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Daha sonra yeni təyinat almış əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər, onlara xidməti vəsiqələr verilib.

müxtəlif bölgələrinə təyinat almış və əksəriyyəti gənclər olan 65 hüquqşünasla ədliyyə naziri Fikrət Məmmədovun görüşü keçirilib.

Gənclər əvvəlcə Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, əziz xatirəsini ehtiramla yad ediblər. Sonra Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsi anılıb, məzarları önünə tər çiçəklər qoyulub. Onlar həmçinin, ulu öndər Heydər Əliyevin nazirliyin binasında büstü önünə gül dəstələri düzüblər.

Nazirlikdə keçirilmiş tədbirdə ədliyyə naziri çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli davamlı tərəqqisini vurğulayıb, əhalinin bütün təbəqələrinin rifahının yüksəldilməsinə yönələn tədbirlər, məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi, ədliyyə orqanlarının inkişafı üzrə görülən çoxşaxəli işlər barədə məlumat verib, statistik göstəricilər diqqətə çatdırılıb.

Həmçinin nazir dövlətimizin gənc nəslin hərtərəfli inkişafına qayğısından, o cümlədən onların dövlət idarəçiliyində məsul vəzifələrə irəli çəkilmələrindən, ictimai-siyasi həyatda daha geniş şəkildə təmsil olunmaları üçün görülən tədbirlərdən bəhs edib. Cənab Prezidentin ölkəmizdə müasir dünyagörüşlü, təmiz, bilikli və Vətənə bağlı kadrların işə cəlb edilməsi barədə verdiyi tapşırıqları vurğulayaraq onlara fəaliyyətləri dövründə zəruri təcrübə toplamaları, xidməti

## ◆ "Ədliyyə sahəsində rəqəmsal transformasiya və innovasiyalar" mövzusunda ictimai təqdimat

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tədbirlər haqqında" 2018-ci il 14 mart tarixli Fərmanı ilə dövlət xidmətlərinin həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi prioritet kimi müəyyənləşdirilib.**

"Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətində müasir texnologiyaların tətbiqinin ge-






nişləndirilməsi, o cümlədən elektron ədliyyə xidmətlərinin sayının artırılması, bu xidmətlərdə yeni innovativ metodların tətbiqi və onların mobil versiyalarının hazırlanması, "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin funksionallığının təkmilləşdirilməsi və bu sahədə digər tədbirlərin görülməsi müəyyən olunub. Ötən il Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində bir neçə innovativ həllər ictimaiyyətə təqdim edilib.

Bu təcrübə davam etdirilərək 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü ərəfəsində Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Bakı Konqres Mərkəzində "Ədliyyə sahəsində rəqəmsal transformasiya və innovasiyalar" mövzusunda ictimai təqdimat keçirilib.

Tədbirdə Ədliyyə Nazirliyinin rəhbər işçiləri, .ictimai xadimlər, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Mətbuat Şurasının, vətəndaş cəmiyyəti institutlarının, bank və İKT sektorunun nümayəndələri, çoxsaylı KİV rəhbərləri, hakimlər, vəkillər iştirak ediblər.

Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova çıxış edərək təqdimat zamanı ictimai işlərin icrasına elektron nəzarət, mobil məhkəmə, elektron etibarnamə, "myGov" portalı və digər yeniliklərə dair məlumat veriləcəyini bildirib.

Təqdimat zamanı nazirliyin müxtəlif fəaliyyət istiqamətləri üzrə müvafiq innovativ həllər nümayiş etdirilib.

İctimai təqdimatda nazirliyin İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə çıxış edib. Bildirilib ki, dövlətimizin başçısının cəza siyasətinin humanistləşdirilməsi barədə 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən ictimai işlər cəzasının formal icrası təcrübəsinin qarşısının alınması məqsədilə yerli mütəxəssislər tərəfindən ictimai işlərə nəzarət qurğusu layihələndirilib və 2018-ci il dekabrın 21-də Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışı zamanı Prezident İlham Əliyevə əyani nümayiş olunub. Bu il həmin qurğu istehsal edilərək sınaqlar keçirilib və bilavasitə məhkumlar üzərində pilot rejimdə istifadəsinə başlanılıb.

Mobil məhkəmə barədə məlumat verilərkən qeyd edilib ki, məhkəmə xidmətlərinə əlçatanlığın artırılması məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin mobil versiyası hazırlanıb. "Mobil məhkəmə" proqram təminatı üzərindən istifadəçi "Şəxsi kabineti" vasitəsilə sistemin açdığı bütün imkanlardan yerləşdiyi yerdən asılı olmayaraq öz mobil cihazı vasitəsilə istifadə edə bilər.

Diqqətə çatdırılıb ki, Ədliyyə Nazirliyi tərəfindən aparılan normativ hüquqi aktların internet elektron bazasının (e-qanun) və Hüquqi Aktların Dövlət Reyestrinin birləşdirilməsi əsasında müasir tələblərə cavab verən yeni vahid elektron qanunvericilik bazası formalaşdırılıb. Yeni sistemdə rahat istifadə şəraiti, müasir dizayn, geniş və sürətli axtarış imkanı, eləcə də normativ sənədlərin bir mənbədən əldə edilməsi təmin edilib, normativ hüquqi aktların struktur elementləri üzrə qəbul olunmuş qərarlarla tanış olmaq funksionallığı yaradılıb. Növbəti ildən sistemin mobil tətbiqi də istifadəyə veriləcək.

Ötən il Heydər Əliyev Beynəlxalq Aeroportunda quraşdırılmış elektron ədliyyə köşkü



vasitəsilə icra sənədləri üzrə borcların ödənilməsi və məhdudiyyətlərin avtomatlaşdırılmış qaydada aradan qaldırılması imkanı təşkil edilib. Sınaqları başa çatdıqdan sonra yaxın günlərdə bu funksionallıq istifadəyə veriləcək.

Bundan başqa, "Mobil notariat" proqram təminatının imkanları genişləndirilərək bu platforma üzərindən məkandan asılı olmayaraq həftənin bütün günləri 24 saat ərzində, notariat ofisinə müraciət etmədən nəqliyyat vasitələrinin idarə edilməsinə dair etibarnamələrin elektron rəsmiləşdirilməsi imkanı yaradılıb.

Tədbirdə, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Elektron Hökumətin İnkişafı Mərkəzinin direktor müavini Mehdi Cavadov çıxış edib. Çıxış zamanı Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi nazirliklə əməkdaşlıq nəticəsində təşkil edilmiş "Elektron hökumət"in müasir versiyası olan "myGov" portalı vasitəsilə göstərilən ədliyyə xidmətləri, o cümlədən nikahın və doğumun elektron qaydada qeydə alınması prosesi təqdim edilib.

Sonra ədliyyə fəaliyyətinə dair mətbuat konfransı keçirilib və Ədliyyə Nazirliyinin məsul işçiləri tərəfindən iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## ◆Ədliyyə Nazirliyində Avropa İttifaqının və diplomatik korpusun təmsilçiləri ilə görüş

**Ədliyyə işçilərinin peşə bayramı günü ərəfəsində Ədliyyə Nazirliyində Avropa İttifaqının və ABŞ, Böyük Britaniya, Almaniya, İsveçrə, Niderland, Latviya, Belçika, Çexiya və Yunanıstanın ölkəmizdəki səfirliklərinin təmsilçiləri ilə görüş keçirilib.**

Görüşdə məqsəd hüquqi əməkdaşlığın genişləndirilməsi, ədliyyə və məhkəmə sahəsindəki yeniliklər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması, qanunvericiliyin təcrübədə tətbiqi məsələlərini müzakirə etmək olub.

Nazirliyin aidiyyəti idarələrinin rəislərinin iştirakı ilə keçirilən tədbirdə Azərbaycan ədliyyəsinin keçdiyi inkişaf yolundan bəhs olunaraq, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən mütərəqqi ədliyyə və məhkəmə islahatları və tətbiq olunan yeniliklər barədə məlumat verilib, bu sahədə xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq vurğulanıb.

Dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən cinayət qanunvericiliyinə əsaslı dəyişikliklərin edilməsi, azadlığın məhdudlaşdırılması yeni alternativ cəza növünün təsbit olunması, o cümlədən bir sıra əməllərin dekriminallaşdırılması, bu sahədə probasiya xidməti yaradılaraq elektron nəzarət vasitələrinin geniş tətbiqi qeyd olunub.

Qonaqlar həmçinin, ədliyyə



və məhkəmə sisteminin inkişafı üçün mühüm "yol xəritəsi" olan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası, o cümlədən məhkəmə sistemində mövcud olan problemlərin həlli istiqamətində görülən kompleks işlər barədə məlumatlandırılıb.

Eyni zamanda qonaqlara ədliyyə sahəsində tətbiq edilən, Azərbaycan məhsulu olan innovasiyalar və rəqəmsal texnologiyalar - notariat hərəkətlərinin asan və çevik aparılması, əhalinin məmnunluğunun təmin olunması üçün məsafədən xidmətlərin göstərilməsinə imkan verən elektron ədliyyə köşkü, səyyar notariat çantası, notariat fəaliyyətinə, o cümlədən notariat ofisinə müraciət etmədən nəqliyyat vasitələrinin idarə edilməsinə dair etibarnamələrin elektron rəsmiləşdirilməsinə dair "Mobil notariat" proqram təminatı barədə məlumat verilib.

Diplomatik korpusun təmsilçiləri Azərbaycan ədliyyəsinin yaranmasının 101-ci ildönümü münasibətilə təbriklərini ifadə edib, son illər ədliyyə və məhkəmə sahəsində əldə olunan nailiyyətləri maraqla izlədiklərini və bu sahədə aparılan islahatların təqdirəlayiq olduğunu vurğulayıblar. Eyni zamanda, bu nailiyyətlərin öz ölkələrində yayılması ilə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdə qarşılıqlı fəaliyyətin perspektivləri müzakirə edilib, habelə ədliyyə fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə qanunvericiliyin tələbləri izah olunub və təcrübədə tətbiqindən danışılıb, maraq doğuran məsələlərə aydınlıq gətirilib.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyində olaraq Azərbaycan ədliyyəsinin şanlı tarixini və inkişaf mərhələlərini əks etdirən ekspozisiyalarla tanış olub, onlara ədliyyə və məhkəmə islahatlarına və onun praktiki nəticələrinə, tətbiq olunan innovasiyalara dair ingilis dilində hazırlanmış broşüralar təqdim olunub.

## ◆ Ağacəkmə kampaniyası

**22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə keçirilən silsilə tədbirlər çərçivəsində noyabrın 16-da Ədliyyə Nazirliyi tərəfindən ağacəkmə kampaniyası keçirilib.**

Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dövrlərində respublikamızda ətraf mühitin mühafizəsinə, ekoloji durumun yaxşılaşdırılmasına, xüsusilə yaşıllaşdırmaya mühüm önəm verib, bu məqsədlə geniş və çoxşaxəli proqramlar qəbul olunaraq məqsədyönlü tədbirlər həyata keçirilib. Dahi rəh-

bərin müəyyən etdiyi ekoloji siyasət bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə öz bəhrəsini verir. Son dövrlər davamlı olaraq genişmiqyaslı ağacəkmə aksiyaları reallaşdırılır. Dövlətimizin başçısının və respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın keçirilən bu aksiyalarda iştirakı, Fondun təşəbbüsü ilə hazırda "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsinin təşviqi xüsusi qeyd olunmalıdır.

Ölkə rəhbərliyinin bu xeyirxah və nəcib təşəbbüsünü dəstəkləyən Ədliyyə Nazirliyi ağacəkmə aksiyalarına fəal qoşularaq ətraf mühitin yaşıllıq







zonasına çevrilməsi, vətəndaşların sağlam həyatının təmin olunması məqsədilə ağacəkmə aksiyasına başlanılıb.

Böyük həvəslə nazirliyin kollektivinin, həmçinin rəhbər işçilərinin, eləcə də gənc ədliyyə könüllülərinin iştirakı ilə təkcə Bakı şəhərinin Xəzər rayonu ərazisində təşkil olunmuş aksiyada həmin gün 1.000-dən çox müxtəlif növ ağac əkilib, təmizlik və abadlıq işləri aparılıb.

## ◆ Qanvermə aksiyası, intellektual və idman yarışları



Qanvermə aksiyası

**Respublikamızda əhalinin sağlamlığının qorunmasına, hemofoliya və talassemiya xəstəliklərindən əziyyət çəkən insanların qabaqcıl dünya təcrübəsinə uyğun olaraq müalicə olunmasına xüsusi diqqət yetirilərək, bu sahədə məqsədyönlü tədbirlər həyata keçirilir, müasir infrastrukturlar yaradılır.**

Görülən tədbirlər insanların donor qanına ehtiyacı probleminin həllinə, talassemiya və hemofoliya xəstəliklərindən ölümün azalmasına xidmət edir.

Belə xəstələrə yardım məqsədilə ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə nazirlik tərəfindən könüllü qanvermə aksiyası təşkil olunub.

Aksiyaya mütəşəkkil qaydada qoşulan ədliyyə işçiləri fəallıq nümayiş etdirərək qan veriblər.

***

**Peşə bayramı münasibətilə nazirliyin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin xətti ilə həmçinin, bir sıra idman turnirləri və intellektual yarışlar təşkil olunub.**

Ədliyyə işçiləri arasında keçirilən ənənəvi şahmat turniri geniş auditoriyanın marağına səbəb olub, iştirakçılar arasında keçən gərgin görüşlər ədalətli



Şahmat turniri


Nə? Harada? Nə zaman? intellektual oyunu

yarış mühitinin formalaşmasına mane olmayıb.

Dairəvi sistem üzrə 3 qrupda təşkil olunmuş 5 turdan ibarət şahmat turnirinə nazirliyin 18 əməkdaşı qatılıb. Yarışın sonunda qaliblər mükafatlandırılıblar.

Eyni zamanda, Ədliyyə Nazirliyinin müxtəlif xidmət sahələrini təmsil edən 6 nəfərlik heyətdən ibarət 10 komanda arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.

Yarışda oyunun obyektiv və qərəzsiz keçməsi üçün hər cür şərait yaradılıb, o cümlədən oyuna marağı olan digər əməkdaşların da tamaşaçı qismində iştirakı təmin edilib. Oyun ərzində səslənən suallara ən çox düzgün cavab vermiş komanda intellektual oyunun qalibi elan edilib.

Bayram münasibətilə Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən 25 oktyabr - 17 noyabr 2019-cu il tarixlərində futzal üzrə turnir də təşkil olunub.

Yarışlar Bakı Tennis Akademiyasında nazirliyin struktur qurumlarının və məhkəmələrin əməkdaşları arasında keçirilib və turnirdə iştirak edən səkkiz komanda biri ilə yarışıblar. Turnirin final mərhələsinə vəsiqə qazanan Bakı məhkəmələri aparatı işçiləri ilə Ədliyyənin Veteranları komandaları arasında keçirilmiş yarış birincilərin qələbəsi ilə yekunlaşıb və turnirin qalibi olub.

Sonda qaliblərə kubokun, ilk üç yerı tutan komandalara medalların, ən yaxşı oyunçular və ən sərrast bombardirə diplomların verilməsi ilə turnirin təntənəli baglanış mərasimi keçirilib.


Futzal oyunu

# Ədliyyə naziri bank sektorunun təmsilçiləri ilə görüşüb



**Ölkə Prezidenti İlham Əliyevin iqtisadi müşavirədə verdiyi tapşırıqlardan irəli gələn vəzifələr dərhal Ədliyyə Nazirliyində müzakirə olunaraq zəruri tədbirlər görülüb, o cümlədən ötən ay bankların məsul təmsilçiləri ilə "dəyirmi masa" keçirilib.**

Bankların hüquqlarının məhkəmə müdafiəsinin və icra işinin yaxşılaşdırılması, bu sahədə qarşıya çıxan problemlərin operativ həlli məqsədilə birgə işçi qrupları yaradılaraq qısa müddətdə səmərəli fəaliyyət göstərib.

Bu sahədə iş daim nəzarətdə saxlanılmaqla ədliyyə naziri Fikrət Məmmədov tərəfindən bank sektorunun bir qrup rəhbər şəxsləri ilə görüş keçirilib. Tədbirdə işçi qrupları tərəfindən görülən işlər barədə məlumat dinlənilib və qarşıda duran məsələlər müzakirə olunub.

Nazir ölkə iqtisadiyyatının aparıcı sahələrindən olan banklarla ədliyyə orqanlarının qarşılıqlı fəaliyyətinin əhəmiyyətini qeyd edib, dövlət başçısının "Məhkəmə-hüquq siste-

mində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası üzrə həyata keçirilən, o cümlədən sahibkarlığın inkişafına və bank sektorunun fəaliyyətinin səmərəliliyinə xidmət edən kompleks qanunvericilik, institusional və praktiki tədbirlər barədə məlumat verib.

Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev ölkə Prezidentinin tapşırıqlarının icrası ilə bağlı Ədliyyə Nazirliyi tərəfindən təxirəsalınmadan mühüm addımların atılmasını qeyd edib, ədliyyə sisteminin rəqəmsallaşmasını, o cümlədən bankların işinin asanlaşmasına xidmət edən "elektron məhkəmə" və "elektron icra" informasiya sistemlərinin, notariat və məhkəmə ekspertizası sahəsində innovasiyaların tətbiqini yüksək qiymətləndirib. Həmçinin bankların fəaliyyəti ilə bağlı qaldırılan məsələlərə nazirlik tərəfindən operativ reaksiya verilməsini və birgə işçi qrupların işinin müsbət nəticələrini vurğulayıb.

Görüşdə ədliyyə naziri işçi qrupları tərəfindən işlərin davam etdirilməsi ilə bağlı aidiyyəti tapşırıqlar verib.

# Ədliyyə naziri və nazir müavinləri regionlarda vətəndaşları qəbul ediblər

**Ölkə Prezidenti cənab İlham Əliyevin insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq nazirliyin rəhbərliyinin bölgələrdə mütəmadi səyyar qəbulları keçirilir.**



Noyabrın 6-da ədliyyə naziri Fikrət Məmmədov Astara rayonunda Astara, Lənkəran və Lerik rayonlarında yaşayan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Eyni zamanda nazir müavinləri Vilayət Zahirov tərəfindən noyabrın 8-də Masallı, Azər Cəfərov tərəfindən isə noyabrın 15-də Zaqatala rayonlarında vətəndaşların qəbullarını keçiriblər.

Qəbullardan öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Qəbul zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlə-





nilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfərlər çərçivəsində nazirliyin rəhbərliyi tərəfindən yerli ədliyyə orqanlarının və məhkəmələrin işi ilə tanış olunub. Həmçinin, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirilərək ədliyyə və məhkəmə fəaliyyətinin dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşdirilməsi, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası üzrə görülən işlərdən bəhs olunub, qarşıda duran vəzifələr müzakirə edilərək, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin edilməsi, vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tövsiyə və tapşırıqlar verilib.

# Məhkəmə-Hüquq Şurasının iclası keçirilib

**Məhkəmə-Hüquq Şurasının iclasında çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı sosial-iqtisadi tərəqqisini, ictimai həyatın bütün sahələrində əldə olunan genişmiqyaslı uğurları qeyd edib, "Məhkəmə-hüquq sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanın məhkəmə fəaliyyətinin müasir çağırışlara uyğun qurulmasında müstəsna rolunu vurğulayıb.**

Bildirilib ki, Fərmanın icrası çərçivəsində 40-dək mühüm normativ aktın layihəsi hazırlanıb, məhkəmə fəaliyyətinin təkmilləşməsinə, hakimlərin müstəqilliyinin möhkəmlənməsinə yönələn bir sıra qanunlar artıq qəbul edilib, digər tədbirlər görülüb. Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən və çevik baxılmasını təmin etmək məqsədilə yeni ixtisaslaşmış məhkəmələr təsbit olunub.



Ölkə Prezidentinin 2019-cu il 19 iyul tarixli Sərəncamı ilə mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə, Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəkidə yeni Kommersiya və ayrıca İnzibati məhkəmələr yaradılıb. 2020-ci il yanvarın 1-dən fəaliyyətə başlayacaq həmin məhkəmələrin müvafiq bina, avadanlıq, digər təşkilati-texniki vasitələrlə təmin edilməsi, məhkəmə aparatlarının formalaşdırılması üzrə tədbirlər görülür.

İclasda Kommersiya və İnzibati məhkəmələrin fəaliyyəti və gələcək iş həcmi üzrə aparılmış təhlillər nəzərdən keçirilməklə, onların ərazi yurisdiksiyası müəyyən olunub, dövlət başçısının qeyd edilən Sərəncamı ilə qarşıya qoyulmuş digər məsələlər müzakirə edilib. Həmçinin hakimlərin iş yükünün azaldılması və məhkəmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi məqsədilə Fərmana əsasən hakimlərin ştat sayının 200 vahid artırılmasının mühüm əhəmiyyəti vurğulanıb. Həmin ştatların məhkəmələr, o cümlədən yeni yaradılan Kommersiya və İnzibati məhkəmələr üzrə bölüşdürülməsinə dair müvafiq qərar qəbul olunub. Bu ştatların hakimlərlə komplektləşdirilməsinin fəaliyyətin səmərəliliyinin artırılmasına, məhkəmələrdə işlərə vaxtında və keyfiyyətlə baxılmasına xidmət edəcəyi bildirilib.

Bununla əlaqədar iclasda hakim vəzifəsinə namizədlərin seçilməsi prosesinin gedişi barədə Hakimlərin Seçki Komitəsinin məlumatı dinlənilib. Qeyd edilib ki, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, xüsusilə dövlət başçısı tərəfindən ayrılmış əlavə hakim ştatla-

rının yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hüquqşünaslar hesabına komplektləşdirilməsi məqsədilə hakimlərin seçimi Qaydası təkmilləşdirilib, seçim prosesi daha çevik və davamlı xarakter alıb. Artıq 200-dən çox namizədlə müsabiqə, o cümlədən test üsulu ilə və yazılı imtahanlar keçirilib, 81 nəfər növbəti mərhələyə - şifahi imtahana vəsiqə qazanıb. Hakimliyə namizədlərlə noyabr ayının 15-dən şifahi imtahanlara başlanacaq.

Bununla yanaşı, hakim olmaq üçün sənədlərini təqdim etmiş 250-dək hüquqşünasla noyabr ayının 23-də növbəti test imtahanının keçiriləcəyi bildirilib. Müasir texnologiyalar tətbiq edilməklə təşkil olunan və onlayn qaydada canlı yayımlanan imtahanda hər bir namizəd sualları kompüter vasitəsilə, fərdi qaydada cavablandıracaq və nəticələr dərhal elan olunacaq.

İclasda hakimlərin seçimi üzrə görülən işlər təqdir olunub, imtahanların tam şəffaf və obyektiv keçirilməsinin, ən layiqli hüquqşünasların seçilərək hakim vəzifələrinə təyin edilməsinin əhəmiyyəti vurğulanıb. Həmçinin məhkəmə fəaliyyətində aşkarlığın artırılması, o cümlədən kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqələrinin səmərəli qurulması üzrə bəzi təşkilati məsələlər müzakirə edilib, müvafiq qərarlar qəbul olunub.

Şurada qanunvericiliyin kobudcasına pozulmasına, süründürməçilik və digər neqativ hallara yol verdiklərinə görə dörd hakimə töhmət verilib, Etik Davranış Kodeksinin tələblərinin pozulmasına və hakim adına ləkə gətirən hərəkətlərə yol verdiyinə görə Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi Ramil Həsənovun hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilib, iki hakim barədə intizam icraatları başlanılıb.

# Hakimlərin Seçki Komitəsinin məlumatları

**Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ölkə Prezidentinin tapşırıqlarına əsasən görülən tədbirlər çərçivəsində hakim vəzifəsinə namizədlərin ən müasir beynəlxalq tələblər səviyyəsində, tam şəffaf prosedurlar əsasında seçimi üzrə müsabiqə davam edir.**



Mətbuatda xəbər verildiyi kimi, test imtahanında müvəffəqiyyət qazanmış 158 nəfər namizədlə yazılı imtahan keçirilib, imtahan zamanı cinayət və mülki sahələr üzrə 2 kazus xarakterli sual 4 saat ərzində cavablandırılıb. İmtahanı beynəlxalq təşkilat və yerli QHT-lərdən olan çoxsaylı müşahidəçi və KİV nümayəndələri izləyib.

Hakimliyə namizədlərin cavab vərəqələri anonim qaydada yoxlanılması üçün kodlaşdırılaraq ikiqat üsulla Hakimlərin Seçki Komitəsinin üzvləri və dəvət edilmiş mütəxəssislər tərəfindən ayrı-ayrılıqda yoxlanılıb, bu zaman namizədlərin qanunun məzmununu açmaq və onun izahını vermək, kazusları həll etməklə qoyulmuş məsələlərə düzgün qiymət vermək bacarıqlarına xüsusi diqqət yetirilib.

İmtahanın nəticəsinə görə hər bir sahə üzrə 60 və daha çox bal toplamış 81 nəfər namizəd müsabiqənin növbəti mərhələsinə - şifahi imtahana buraxılıb.

Eyni zamanda Hakimlərin Seçki Komitəsi bildirir ki, dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.-2019-cu il tarixli Fərmanı ilə əlavə ayrılmış hakim ştatlarının yüksək hazırlıqlı hüquqşünaslar hesabına komplektləşdirilməsi məqsədilə hakimlərin seçimi

prosesi davamlı xarakter daşıyır. Bununla əlaqədar mütəmadi sənəd qəbulu nəticəsində artıq 220-dək hüquqşünas Komitəyə sənədlərini həmçinin, elektron qaydada təqdim edib.

İclasda həmin namizədlərlə test imtahanının keçirilməsi məqsədilə hazırlıq tədbirləri müzakirə olunub. İmtahanın Dövlət İmtahan Mərkəzi tərəfindən noyabr ayının ikinci yarasında keçirilməsinin mümkünlüyü qeyd edilib.

Hakimlərin Seçki Komitəsi tərəfindən test imtahınının tarixi, buraxılış vərəqələrinin təqdim olunması və s. məsələlərə dair əlavə məlumatlar veriləcəkdir.

***

**Ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.-2019-cu il tarixli Fərmanı ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə qarşıda mühüm məsələlər qoyulub, o cümlədən hakimlərin iş yükünün azaldılması, işlərə vaxtında və daha keyfiyyətlə baxılması məqsədilə hakim ştatlarının sayı 200 vahid artırılıb, yeni ixtisaslaşmış məhkəmələr yaradılıb.**



Bununla əlaqədar hakimlərin seçimi üzrə açıq müsabiqə elan olunub. 200-dən çox namizədlə test üsulu ilə və yazılı imtahanlar keçirilib, 81 nəfər növbəti mərhələyə - şifahi imtahana vəsiqə qazanıb. Artıq həmin hakimliyə namizədlərlə şifahi imtahanlar başlanıb.

Bununla yanaşı sənədlərin qəbulu davam edib və 229 nəfər namizədlə noyabr ayının 23-də Dövlət İmtahan Mərkəzində beynəlxalq və yerli müşahidəçilərin, o cümlədən vətəndaş cəmiyyəti nümayəndələrinin, televiziya və mətbuat təmsilçilərinin iştirakı ilə növbəti test imtahanı keçirilib.

Namizədlər üçün hər cür əlverişli şəraitin yaradıldığı imtahan zamanı onlar sualları müasir texnologiyaların tətbiqi ilə, fərdi qaydada, kompüter vasitəsilə cavablandırıblar.

Şəffaf keçirilən imtahanın nəticələri hər bir namizədə o, sualları cavablandırdıqdan dərhal sonra elan olunmaqla müvafiq arayış təqdim edilib. Həmçinin, imtahan jlc.gov.az saytı vasitəsilə "on-line" rejimində birbaşa yayımlanıb.

İmtahanda 60 və daha artıq bal toplayaraq uğur qazanmış 108 nəfər hakimliyə namizəd müsabiqənin növbəti mərhələsinə buraxılıb. Proses müşahidəçilər tərəfindən şəffaf prosedur kimi yüksək dəyərləndirilib.

Eyni zamanda Hakimlərin Seçki Komitəsi bildirir ki, hakimliyə namizədlərin sənədlərinin qəbulu davam edir. Bununla əlaqədar hakim olmaq arzusunda olan hüquqşünaslar sənədlərini təqdim etməyə dəvət olunurlar.

# "Mübahisələrin alternativ həlli və əhaliyə hüquqi yardım göstərilməsi" layihəsinin təqdimatı olub

**Noyabrın 4-də Bakıda Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Mübahisələrin alternativ həlli və əhaliyə hüquqi yardım göstərilməsi" adlı birgə layihənin təqdimatı keçirilib.**

İkiillik müddət üçün nəzərdə tutulmuş layihənin əsas məqsədi "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun icrası və əhaliyə göstərilən hüquqi yardımın təkmilləşdirilməsidir. Ümumi büdcəsi 999 min 566 avro olan layihə qanunun və Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq




sistemində islahatların dərinləşməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanının icrası ilə bağlı həyata keçirilir.

Təqdimat mərasimində çıxış edən Azərbaycanın ədliyyə nazirinin müavini Azər Cəfərov Azərbaycan və Avropa İttifaqı arasında məhkəmə-hüquq sahəsində əlaqələrin genişləndirilməsi istiqamətində həyata keçirilən layihələrdən və tədbirlərdən danışıb. Nazir müavini bildirib ki, təqdimatı keçirilən layihənin ölkəmizdə reallaşdırılması üçün ilkin mərhələdə seminarlar təşkil olunub, qanun layihəsi hazırlanaraq təqdim edilib. Layihə ilə bağlı beynəlxalq təcrübə öyrənilib. Ədliyyə Nazirliyi Dünya Bankı ilə keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi komponentini hazırlayıb. O, layihənin Azərbaycan ədliyyəsi üçün uğurlu olacağına əminliyini ifadə edib.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas icra olunacaq yeni layihənin Avropa İttifaqı ilə Azərbaycan arasında məhkəmə-hüquq sahəsində qurulan səmərəli əməkdaşlığın inkişafına xidmət edəcəyinə, məhkəmə sisteminin səmərəliliyinin daha da artırılmasına töhfə verəcəyinə inandığını söyləyib. O bildirib ki, 2020-ci ilin iyul ayına qədər layihə ilə bağlı təlimlər keçiriləcək. Burada əsasən ailə, kommersiya və əmək məsələləri diqqətdə saxlanılacaq.

Mediatorlar Leonardo D'urso (İtaliya), Konstantin Adi Qavrila (Rumıniya) və Ruslan Mirzəyev (Azərbaycan) layihə çərçivəsində görüləcək işlər və yol xəritəsi barədə məlumat veriblər. Bildirilib ki, layihənin əsas komponentləri mediasiya sahəsində strategiyanın müəyyən edilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, Mediasiya Şurasının yaradılması, rəsmi təlimlərin başlanması, mediasiyanın təbliği, hüquqi yardımın, xüsusilə də ödənişsiz hüquqi yardımın göstərilməsi ilə bağlı tövsiyələrin hazırlanmasıdır.

Tədbirdə "Mediasiya haqqında" Qanunun səmərəli və lazımi qaydada icrası məqsədilə ən qısa zamanda Mediasiya Şurasının yaradılmasının və rəsmi mediasiya təlimlərinin başlanmasının zəruriliyi vurğulanıb.

Layihənin açılış mərasimində beynəlxalq təşkilatların, xarici dövlətlərin, ictimai qurumların, aidiyyəti dövlət orqanlarının, məhkəmələrin nümayəndələri iştirak ediblər.

# Ədliyyə Nazirliyinin nümayəndəsi Avropa Şurasının Ekspertlər Komitəsinin iclasında iştirak edib

Noyabrın 13-15-də Strasburqda Avropa Şurasının (AŞ) Cinayət məsələlərində əməkdaşlığa dair Avropa Konvensiyalarının (ekstradisiya, cinayət işləri üzrə hüquqi yardım, məhkumların verilməsi və s. haqqında) icrası üzrə Ekspertlər Komitəsinin (PC-OC) 77-ci plenar iclası keçirilib.

Avropa Şurası üzv dövlətlərinin, bu konvensiyalara qoşulan digər dövlətlərin və AŞ rəsmilərinin qatıldığı plenar iclasda bu sahədə Azərbaycanın səlahiyyətli qurum kimi Ədliyyə Nazirliyinin Beynəlxalq əmək-





daşlıq idarəsinin rəisi Adil Əbilov iştirak edib.

Tədbirdə ekstradisiya, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və məhkumların verilməsi sahəsində mövcud olan təcrübə, ekstradisiya üzrə model sorğuların hazırlanması, Avropa Şurası tərəfindən nəşr edilmiş ekstradisiya standartlarına dair bələdçinin yenilənməsi, o cümlədən bu sahədə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən baxılmış yeni işlər müzakirə olunub.

İclasda Azərbaycan nümayəndəsi çıxış edərək ölkəmizin Ədliyyə Nazirliyi tərəfindən hüquqi yardım, məhkumların verilməsi və ekstradisiya sahəsində görülən işlər, digər dövlətlərlə ikitərəfli müqavilələrin bağlanması barədə məlumat verib, ötən ay Azərbaycan tərəfindən "Ekstradisiya haqqında" 1957-ci il tarixli Avropa Konvensiyasının Dördüncü Əlavə Protokolunun imzalandığını qeyd edib. Bildirib ki, Protokol dövlətimiz adından Strasburqda AŞ-nın Baş katibinin iştirakı ilə ədliyyə naziri Fikrət Məmmədov tərəfindən imzalanıb.

Ekstradisiya standartlarına dair bələdçinin yenilənməsi ilə bağlı ölkəmizin töhfəsi AŞ tərəfindən təqdir olunub. Həmçinin, ekstradisiya üzrə hazırlanmış model sorğu Azərbaycan




tərəfinin də təklifləri nəzərə alınmaqla bəyənilib.

Komitənin iclası çərçivəsində "Cinayət işləri üzrə hüquqi yardım haqqında Avropa Konvensiyasının 60 illiyi"nə dair xüsusi sessiya keçirilib.

PC-OC tərəfindən beynəlxalq hüquqi yardımın video-konfrans vasitəsilə göstərilməsi ilə bağlı məruzəçi qismində seçilmiş Azərbaycanın nümayəndəsi tədbirdə çıxış edərək cinayət işləri üzrə beynəlxalq hüquq yardımın göstərilməsində video-konfransların tətbiqi tarixindən bəhs edərək bildirib ki, ilk belə bir üsuldan təhlükəsizliyin təmin olunması məqsədilə hələ ötən əsrin sonlarında İtaliyada mafiya üzvləri ilə bağlı işlərdə istifadə edilib.

Bu sahədə beynəlxalq təcrübəyə, Avropa Məhkəməsinin qərarlarına istinad olunaraq vurğulanıb ki, cinayət işləri üzrə beynəlxalq hüquqi yardımın video-konfrans vasitəsilə göstərilməsi məhkumların daşınması zəruriliyinin aradan qaldırılmasına və onların, həmçinin, həssas qrupların, xüsusilə uşaqların təhlükəsizliyinin təmin olunmasına, maliyyə vəsaitinin qənaət edilməsinə və vaxt itkisinin azaldılmasına, məhkəmə proseslərinin, dindirmələrin daha səmərəli və dolğun aparılmasına xidmət edir.

Eyni zamanda, ölkəmizdə bu sahədə görülən praktiki tədbirlər, qanunvericiliyin yenilənməsi, layihələrin təşviqi, artıq bəzi məhkəmələrdə video-konfransların pilot qaydada tətbiqi barədə danışılıb.

Tədbir çərçivəsində bir sıra dövlətlərin nümayəndələri ilə ekstradisiya məsələlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

# “Uşaq Hüquqları Aylığı” çərçivəsində tədbirlər







**BMT-nin Uşaq Hüquqları Bəyannaməsinin qəbulundan 60 il, Uşaq hüquqları haqqında Konvensiyasının qəbulundan isə 30 il ötür. Bu mühüm sənədlərin qəbul olunduğu tarix, 20 noyabr - Ümumdünya Uşaq Günü elan olunub. BMT Baş Məclisi tərəfindən bütün dünyada uşaqların rifahının yaxşılaşdırılması üzrə fəaliyyətə həsr edilən Ümumdünya Uşaq Günü ölkəmizdə də geniş qeyd edilir.**

Bu münasibətlə uşaqlara diqqətin artırılması məqsədilə 20 oktyabr - 20 noyabr tarixlərində elan olunmuş "Uşaq Hüquqları Aylığı" çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən aidiyyəti dövlət qurumları və QHT-lərlə birgə cəmiyyətimizin ən həssas və kövrək təbəqəsi olan uşaqların fəal iştirakı ilə müxtəlif, o cümlədən orta ümumtəhsil məktəblərində, uşaq müəssisələrində görüşlər təşkil olunub, uşaq evlərinə baş çəkilərək azyaşlılara qayğı göstərilib, uşaq hüquqları mövzusunda Ədliyyə Akademiyasında təlimlər, Penitensiar xidmətin Tərbiyə müəssisəsində cəza çəkən yeniyetmə məhkumların cəmiyyətə inteqrasiyası, onlara hüquq və vəzifələri ilə bağlı biliklərin öyrədilməsi, eləcə də uşaqlara qarşı zorakılığın hər hansı növündən müdafiəsi və qarşısının alınması istiqamətində ictimai maarifləndirmə tədbiri keçirilib.

Davam edən tədbirlər çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyəti ilə birgə paytaxtın 46 və 54 nömrəli tam orta məktəblərində "Uşaq Hüquqları Aylığı"na həsr olunmuş maarifləndirici görüşlər keçirilib.

9 noyabr - Dövlət Bayrağı Günü ərəfəsində keçirilən görüşlərdə Nazirliyin, o cümlədən Ədliyyə Akademiyası və Məhkəmə Ekspertiza Mərkəzinin, Nəsimi Rayon İcra Hakimiyyətinin və məktəbin rəhbər və məsul şəxsləri, yuxarı siniflərin şagirdləri və müəllimlər, valideynlər iştirak ediblər.

Açılışda Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi vəzifəsini icra edən Aynur Sabitova, Nəsimi Rayon İcra Hakimiyyətinin müavini Gülarə Verdiyeva, 46 nömrəli məktəbin direktoru Sevinc Budaqova və 54 nömrəli məktəbin direktoru Sahibə Abbasova tərəfindən çıxış edilərək ümummilli lider Heydər Əliyevin

uşaqların hərtərəfli inkişafına yüksək qayğısından, ölkəmizdə uşaq hüquqlarının etibarlı təmin olmasına xidmət edən ardıcıl və məqsədyönlü tədbirlərdən bəhs olunub, dövlət uşaq siyasətinin ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyi, uşaqların sosial təminatının gücləndirilməsi, onların firavan və sağlam, yüksək mənəvi-əxlaqi mühitdə layiqli şəxsiyyət kimi yetkinləşməsi istiqamətində mühüm addımların atıldığı vurğulanıb. Bu sahədə həyata keçirilən çoxşaxəli təşəbbüslərin uğurla reallaşdırılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri qeyd olunub.

Tədbirlərdə Məhkəmə Ekspertiza Mərkəzinin Bioloji Ekspertizalar şöbəsinin rəisi Səbinə Qədirova "Həyata - hə, narkotiklərə yox" yeni növ narkotiklərin təhlükəsi", Mərkəzin eksperti Məmməd Ramazanov "Kiberbullinq anlayışı və informasiya təhlükəsizliyi" və Ədliyyə Akademiyasının baş müəllimi Mətanət Əsgərova "Yeniyetmələrin cinayət işləri üzrə ədalət mühakiməsinin keçirilməsi: yuvenal ədliyyə" mövzularında çıxışlar edilərək uşaqların həyatına, sağlamlığına təhlükə olan kiber və digər cinayətlərdən, pis vərdişlərdən hər zaman uzaq durmaq tövsiyə olunub, şagirdlərə gələcəyin vətənpərvər, yüksək zəkalı, intellektual, milli-mənəvi dəyərlərə sadiq vətəndaş kimi formalaşmaları aşılanıb, mövzularla bağlı maarifləndirici slaydlar nümayiş etdirilib, şagirdləri maraqlandıran suallar cavablandırılıb.

İştirakçılar məktəblilər üçün bu cür aktual mövzularda maarifləndirici görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Sonda şagirdlər ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

**"Uşaq Hüquqları Aylığı" çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən "Əlillərə və Aztəminatlı Ailələrə İctimai Dəstək" fondu və "Ümidli Gələcək" sosial təşəbbüslər ictimai birliyi ilə birgə Bakı şəhəri Xətai rayonunda yerləşən 3 saylı uşaq evində təntənəli tədbir keçirilib.**



Ədliyyə işçilərinin peşə bayramı ərəfəsində keçirilən tədbirdə çıxış edən nazirliyin Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin rəisi R.Kərimova Azərbaycanda uşaq hüquqlarının qorunmasının dövlət siyasətinin əsas istiqamətlərindən olduğunu qeyd edib, ulu öndər Heydər Əliyevin uşaqlara göstərdiyi diqqət və qayğıdan bəhs edib, ölkə Prezidenti cənab İlham Əliyev və Birinci Vitse-prezident Mehriban Əliyeva tərəfindən uşaqların təhsilinin, sağlamlığının, sosial müdafiəsinin gücləndirilməsi, həmçinin asudə vaxtlarının səmərəli təşkili üçün geniş imkanların yaradıldığını vurğulayıb.

Sonra uşaqlara hədiyyələr - oyuncaqlar, şirniyyatlar, geyim əşyaları, habelə rəssamlıq ləvazimatları təqdim edilib və onlar üçün bayram süfrəsi təşkil olunub.

Tədbir gənc musiqiçilərin ifasında milli musiqilər və rəqslərlə davam etdirilib.

# Qadınlar üçün ictimai dinləmə keçirilib

**Ölkəmizdə insan hüquqlarının daha etibarlı qorunmasına xidmət edən demokratik hüquqi islahatlar çərçivəsində uğurlu gender siyasəti aparılır, qadın problemlərinin həlli dövlət və cəmiyyət tərəfindən daim diqqət mərkəzində saxlanılır.**

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan hərtərəfli mütərəqqi islahatlar hər bir ailənin rifahının yaxşılaşmasına, həmçinin cəmiyyətimizin müxtəlif təbəqələrinin, o cümlədən qadınların hüquqlarının təmin olunmasına yönəlib. Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən məqsədyönlü və önəmli tədbirlər də ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır.

Cəmiyyətdə qadınların daha çox əziyyət çəkdiyi kobud rəftar, şiddət və bu kimi digər halların yolverilməzliyi ən vacib məsələlərdən biridir. Dünyanın əksər inkişaf etmiş dövlətləri kimi, Azərbaycanda da gender əsaslı zorakılığın qarşısının alınması üçün mühüm addımlar atılır.

Ölkə ictimaiyyətinin diqqətini gender əsaslı zorakılıqla mübarizəyə cəlb etmək məqsədilə keçirilən "Qadınlara və qızlara qarşı zorakılığa son qoyaq!" 16 günlük fəallıq kampaniyası çərçivəsində müxtəlif maarifləndirici tədbirlər keçirilir.



İnsan hüquq və azadlıqlarının təmin olunmasında, bu sahədə yerli və beynəlxalq qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın həyata keçirilməsində iştirak edən Ədliyyə Nazirliyi tərəfindən kampaniya çərçivəsində noyabrın 29-da Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyəti ilə birgə qadınlar üçün ictimai dinləmə keçirilib.

Tədbirdə nazirliyin və icra hakimiyyətinin rəhbər şəxsləri, Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvü, ədliyyə işçiləri, notarius, hakim, polis, vətəndaş cəmiyyəti institutunun nümayəndələri və rayonun çoxsaylı qadınları iştirak ediblər.

Nəsimi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Gülarə Verdiyeva və Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova çıxış edərək qadınların hüquqi maarifləndirilməsi, onların ailə-məişət qayğıları ilə maraqlanılması məqsədi daşıyan tədbirin əhəmiyyətini qeyd edib, ölkəmizdə cəmiyyətin həssas təbəqəsi olan qadınların hüquqlarının təmin olunması üzrə atılan mühüm addımlardan bəhs ediblər.

Vətəndaşlarla sual-cavab kontekstində keçirilən tədbirdə hər bir müraciət diqqətlə dinlənilib, qaldırılan məsələlər araşdırılması və həlli ilə bağlı aidiyyəti dövlət qurumuna yönləndirilib, qadınların hüquqları, qanunvericiliyin tələbləri izah olunub.

# Probasiya xidmətinin məsul əməkdaşları beynəlxalq tədbirlərdə iştirak ediblər

## ◆ *IV Beynəlxalq Penitensiar Forum*

Cari ilin 20-22 noyabr tarixlərində Ryazan şəhərində Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyasında Rusiyanın cəza-icra sisteminin 140 illiyinə və Akademiyanın 85 illiyinə həsr edilmiş "Cinayət,



cəza, islah" mövzusunda İV Beynəlxalq Penitensiar Forum keçirilib.

Rusiya Federal Məclisinin Federal Şurasının, Dövlət Dumasının, Prezident yanında Vətəndaş cəmiyyəti və insan hüquqlarının inkişafı üzrə Şurasının, İctimai Palatasının, Ədliyyə Nazirliyinin, Baş Prokurorluğun, İnsan Hüquqları üzrə Müvəkkilinin, Cəzaların İcrası Federal Xidmətinin rəhbər və məsul şəxslərinin, Rusiyanın və 15 xarici dövlətin tədris və elm müəssisələrinin, cəzaların icrası sahəsi üzrə əməkdaşlarının, aparıcı alimlərin, habelə yerli və beynəlxalq ictimai təşkilatların təmsilçilərinin qatıldığı tədbirdə Azərbaycan Ədliyyə Nazirliyi Probasiya Xidmətinin rəis müavini Musa Hümbətov və Ədliyyə Akademiyasının aparıcı məsləhətçisi Azər Seyidov iştirak ediblər.

Beynəlxalq elmi-praktiki konfranslar, plenar iclas və dəyirmi masa formatında təşkil olunmuş Forumun əsas məqsədi Rusiya və xarici dövlətlərin cəza-icra xidmətlərinin fəaliyyət istiqamətləri üzrə mövcud vəziyyəti nəzərdən keçirmək, rast gəlinən problemləri müzakirə etməklə onların səmərəli həlli yollarını müəyyənləşdirmək və dövlətlərarası əməkdaşlığın inkişafına töhfələr vermək olub.

Forumun plenar iclasında M.Hümbətov "Azərbaycan Respublikasında probasiya: ilkin nəticələr və perspektivlər" mövzusunda məruzə ilə çıxış edərək Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamının icrası üzrə görülmüş işlər, o cümlədən ölkəmizdə Probasiya Xidmətinin təşkili, bu sahədə həyata keçirilən tədbirlər, xüsusilə cəzaların icrası prosesində elektron nəzarət vasitələrindən istifadə edilməsi təcrübəsi diqqətinə çatdırılıb.

Eyni zamanda, ölkəmizdə son iki ildə məhkəmələr tərəfindən azadlıqdan məhrumetməyə alternativ cəzalara daha çox üstünlük verilməsi, gələcəkdə ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası qaydasının təkmilləşdirilməsi ilə bağlı yeni növ elektron nəzarət vasitəsindən istifadə ilə bağlı pilot layihənin həyata keçirilməsi və bununla əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi barədə məlumat verilib, iştirakçıların suallları cavablandırılıb.

Bununla yanaşı, forum çərçivəsində keçirilmiş "Müasir dövrdə azadlıqdan məhrum etməyə və cinayət-hüquqi xarakterli tədbirlərin icrası"na həsr olunmuş beynəlxalq elmi-praktiki konfransda "Azərbaycan Respublikasında nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum etmə növündə cəza və onun icrası" mövzusunda çıxış edilərək bu sahədə mövcud vəziyyətdən və fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı işlərdən danışılıb.

Tədbir zamanı digər ölkələrdə probasiya fəaliyyətinin təşkili, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası sahəsində yeniliklərlə maraqlanılıb, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

## ◆ Avropa Şurasının Penoloji Əməkdaşlıq Şurasının 9-cu plenar iclası

Noyabrın 5-7-də Strasburqda Avropa Şurasının (AŞ) Penoloji Əməkdaşlıq Şurasının 9-cu plenar iclası keçirilib.

AŞ üzv dövlətlərinin, AŞ Parlament Assambleyasının, İnsan Hüquqları üzrə Komissarlığının, Cinayət Problemləri üzrə

Avropa Komissarlığının və digər tərəfdaş təşkilatların nümayəndələrinin iştirak etdiyi tədbirdə Azərbaycanın Ədliyyə Nazirliyi Probasiya xidmətinin Monitorinq idarəsinin rəisi Elmin Həsənov iştirak edib.

Tədbirdə Əməkdaşlıq Şurasının sonuncu iclasına dair hesabat, Avropa həbsxana qaydalarına müvafiq dəyişikliklərlə bağlı təkliflər, bu ilin mayında keçirilmiş həbsxana və probasiya rəhbərlərinin yüksək səviyyəli iclasının nəticələri müzakirə olunub. Həmçinin həbsxana və probasiya nəzarətində olan məhkumlara münasibətdə AŞ normativ sənədlərinin tələblərinə riayət olunması, məhkumların yeni cinayət törətməsinin qarşısının alınmasında və cinsi hüquq pozuntuları ilə bağlı məhkum edilmiş şəxslərin cəmiyyətə qaytarılmasında elektron monitorinqin rolu barədə fikir mübadiləsi



aparılıb, probasiya fəaliyyətinə dair təqdimatlar keçirilib.

Sonda Penoloji Əməkdaşlıq Şurası tərəfindən 2019-cu ildə görülən işlər və növbəti illərdə gələcək planlar müzakirə edilib.

Tədbir çərçivəsində Avstriyanın, Belçikanın, Türkiyənin, Avropa Probasiya Konfederasiyasının nümayəndələri ilə işçi görüşlərdə son illər ölkəmizdə ədliyyə sahəsində aparılan islahatlar və yeniliklər barədə məlumat verilib, dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının və məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyəti qeyd olunub. Nazirliyin Probasiya xidmətinin fəaliyyəti, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqi maraqla qarşılanıb, əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Tələbələr Probasiya xidmətinin fəaliyyəti barədə məlumatlandırılıblar





**Ölkə Prezidenti cənab İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə cinayət qanunvericiliyinə əsaslı dəyişikliklər edilərək azadlığın məhdudlaşdırılması yeni alternativ cəza növü təsbit olunub, o cümlədən bir sıra əməllər dekriminallaşdırılıb.**

Həmçinin, azadlıqdan məhrumetməyə alternativ cəzaların səmərəli icrası məqsədilə Ədliyyə Nazirliyində probasiya xidməti yaradılaraq həmin cəzaların icrasında elektron

nəzarət vasitələri geniş tətbiq olunur.

Probasiya fəaliyyətinin ictimai əhəmiyyəti nəzərə alınaraq nazirlik tərəfindən mütəmadi maarifləndirmə tədbirləri keçirilir, o cümlədən xüsusi televiziya verilişi hazırlanaraq nümayiş etdirilib. Bu sahədə qısa müddətdə yaranmış müsbət təcrübəmizə maraq göstərilərək digər dövlətlər tərəfindən yerində öyrənilir, həmçinin bir sıra xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri Probasiya xidmətinin elektron monitorinq fəaliyyəti ilə tanış olublar.

Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üzrə Dövlət Proqramının icrası çərçivəsində vətəndaş cəmiyyəti institutlarının, kütləvi informasiya vasitələrinin, ali təhsil müəssisələrinin yuxarı kurs tələbələrinin, orta məktəb şagirdlərinin iştirakı ilə ədliyyə və məhkəmə sahəsindəki yeniliklərə dair ardıcıl görüşlər keçirilir, "açıq qapı" günləri təşkil olunur.

Növbəti belə görüş yeni hüquq təsisatı olan Probasiya xidmətinin fəaliyyətinə dair Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin professor-müəllim heyəti və tələbələri ilə keçirilib.

Tədbirdə nazirliyin Probasiya xidmətinin rəis müavini Musa Hümbətov və Elektron Monitorinq İdarəsinin baş məsləhətçisi Nəvai Əlizadə iştirak ediblər.

Bakı Dövlət Universitetinin 100 illik yubileyinin qeyd olunduğu bu günlərdə keçirilən görüşdə tələbələrə probasiya institutunun mahiyyəti və əhəmiyyəti, bu sahədə görülən işlər, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası mexanizmləri, probasiya əməkdaşlarının vəzifələri, peşə hazırlığı, Probasiya xidmətinin fəaliyyət istiqamətləri, ictimai işlər növündə cəzanın icrasının təşkili, bu sahədə yeniliklər və s. barədə məlumat verilib.

Eyni zamanda, elektron nəzarət vasitələri əyani nümayiş etdirilməklə, bu avadanlığın təyinatından, onun tətbiqi təcrübəsindən bəhs olunub.

Probasiya xidmətinin fəaliyyəti, o cümlədən elektron qolbaqların tətbiqi iştirakçılar tərəfindən maraqla qarşılanıb, faydalı fikir mübadiləsi aparılaraq professor-müəllim heyətinin və tələbələrin suallarına aydınlıq gətirilib.

Görüşdə həmçinin, əlamətdar yubiley münasibətilə Universitetin kollektivi təbrik olunaraq uğurlar arzulanıb, hüquqşünas tələbələr ədliyyə orqanlarında ölkə Prezidentinin çağırışı ilə geniş vüsət alan könüllü fəaliyyətə dəvət ediliblər.

# Ədliyyə Akademiyasında

## ◆Vəkilliyə namizədlərin icbari təlimi

**Prezident İlham Əliyevin ölkədə vəkillərin sayının artırılması ilə bağlı tövsiyələri çərçivəsində Vəkillər Kollegiyası üzvlüyünə qəbul üzrə tədbirlərin həyata keçirilməsi davam etdirilir.**

Bu məqsədlə hazırda tam şəffaf, obyektiv şəkildə ixtisas imtahanları keçirilir.

Noyabrın 14-də Ədliyyə Akademiyasında yazılı və şifahi imtahanlarda müvəffəqiyyət qazanmış 81 vəkilliyə namizədlə bir ayadək davam edəcək icbari təlimə başlanılıb. Təlim zamanı onların lazımi biliyə və peşə hazırlığına yiyələnmələrinə, habelə beynəlxalq təcrübəni öyrənmələrinə xüsusi diqqət yetiriləcək, insan haqlarının qorunması, kibercinayətkarlıq, müasir məhkəmə-hüquq islahatları, vəkillik etikası və digər aktual məsələlərə dair mövzular nüfuzlu ekspertlərin iştirakı ilə tədris olunacaq.

İcbari təlimin ilk günündə namizədlərlə keçirilən görüşdə Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov tədbirdə çıxış edərək vəkillərin ilkin icbari və davamlı tədrisinin əhəmiyyəti barədə fikirlərini bildirib, Vəkillər Kollegiyası ilə birgə hazırlanmış tədris proqramının məzmun baxımından yeniliklərlə zəngin olması barədə namizədlərə məlumat verib və onlara uğurlar arzulayıb.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək vəkillik institutunun inkişafı ilə bağlı həyata keçirilən tədbirlər və gələcək planlar, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər

haqqında" Sərəncamının bu baxımdan xüsusi əhəmiyyət kəsb etməsi, bu çərçivədə ölkədə fəaliyyət göstərən vəkillərin sayının savadlı və peşəkar hüquqşünaslar hesabına artırılmasının önəmi barədə danışıb. O, vəkilliyə qəbulla bağlı keçirilən ixtisas imtahanlarının yazılı və şifahi mərhələsindən uğurla keçmiş namizədləri bu münasibətlə təbrik edərək, hazırkı icbari təlimin vəkilliyə namizədlərin gələcək peşə fəaliyyəti üçün əhəmiyyətini vurğulayıb. Bildirilib ki, təlimçilərin tərkibi əsasən peşəkar vəkillərdən komplektləşdirilib, namizədlər üçün təcrübi dərslərin keçirilməsi, muzeylərə və digər



mədəni obyektlərə səfərlərin təşkil olunması nəzərdə tutulub.

Daha sonra Vəkillər Kollegiyasının sədri Anar Bağırovun "Müasir məhkəmə-hüquq islahatları çərçivəsində vəkillik" mövzusunda mühazirəsi dinlənilib, mövzu ilə bağlı namizədləri maraqlandıran suallar cavablandırılıb.

## ◆"Məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması" mövzusunda video-konfrans





**Ölkə Prezidenti İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində hakimlərin və digər hüquqşünasların peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirilir, Ədliyyə Akademiyasında insan hüquqları və digər aktual mövzularda davamlı tədris tədbirləri, o cümlədən distant treninq formaları tətbiq olunmaqla video-konfrans vasitəsilə təlimlər təşkil olunur. Bu sahədə həmçinin, bir çox dövlətlərlə faydalı əməkdaşlıq edilərək təcrübə mübadiləsi aparılır.**

"Ədliyyə Akademiyası ilə Moldova Milli Ədliyyə İnstitutu arasında əməkdaşlıq haqqında" imzalanmış Memorandumun implementasiyası çərçivəsində "Məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması" mövzusunda video-konfrans vasitəsilə təlim keçirilib.

Hakimlərin və Ədliyyə Nazirliyinin məsul əməkdaşının iştirak etdiyi tədbirdə Akademiyanın rektoru vəzifəsini icra edən Elçin Xələfov açılış nitqi ilə çıxış edib, Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) ilə bağlı keçirilmiş layihələrdən, görülmüş işlərdən bəhs edib. Mövzunun məhkəmə sistemi və hakimlər üçün əhəmiyyətini vurğulayıb.

Video-konfransda Moldova Milli Ədliyyə İnstitutunun Təhsil və tədqiqat departamentinin rəisi Yekaterina Papa və məhkəmə instansiyalarının menecmenti və liderlik təlim modulunun direktoru, vəkil Petru Balanın təqdimatları dinlənilib.

Tədbirdə Moldovanın CEPEJ ilə əməkdaşlıq təcrübəsi, ədalət mühakiməsinə çatımlılıq və məhkəmə instansiyalarının ictimaiyyətlə qarşılıqlı əlaqələri, məhkəmə icraatı prosesində informasiya texnologiyalarının tətbiqi və digər məsələlər müzakirə edilib.

Tədbir iştirakçıları bu cür müasir və aktual mövzulara dair distant təlimlərin təşkilinin onların bilik və bacarıqlarının artırılmasında səmərəsini qeyd ediblər.

## "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci, 11-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 saylı Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, 17, maddə 234; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 11, maddə 687; 2004, N 7, maddə 505; 2006, N 3, maddə 223; 2010, N 11, maddə 936; 2013, N 5, maddə 464; 2014, N 11, maddə 1334; 2015, N 10, maddə 1083; 2018, N 6, maddə 1189; 2019, N 3, maddə 386, N 5, maddə 794; Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1616-VQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 44-cü maddənin üçüncü hissəsinin birinci cümləsində "dövlət notariat haqqında" sözləri "Notariat haqqında" Azərbaycan Respublikasının" sözləri ilə əvəz edilsin;

1.2. 46-cı maddədə "dövlət notariatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə" sözləri "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri ilə əvəz edilsin.

Maddə 2. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 10, N 6, maddə 414; 2001, N 5, maddə 293, N 11, maddə 687, N 12, maddə 740; 2002, N 5, maddə 241, N 6, maddə 328, N 12, maddə 706; 2004, N 5, maddə 318; 2005, N 4, maddə 281, N 8, maddə 699, N 10, maddə 903, N 11, maddə 993; 2007, N 1, maddə 4, N 2, maddə 69, N 8, maddə 745, N 11, maddələr 1053, 1075; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 1, maddə 5, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 7, maddə 597, N 11, maddə 938; 2011, N 4, maddə 258, N 12, maddə 1098; 2012, N 10, maddə 946; 2013, N 11, maddə 1271; 2014, N 11, maddə 1353; 2015, N 5, maddə 487; 2016, N 1, maddə 11, N 7, maddə 1243, N 12, maddə 2025; 2017, N 2, maddə 148, N 12 (I kitab), maddə 2236; 2018, N 7 (I kitab), maddə 1388, N 8, maddə 1673, N 11, maddə 2230; 2019, N 1, maddə 22, N 6, maddələr 993, 997) 79-cu maddəsinə birinci və ikinci hallarda "müvafiq icra hakimiyyəti orqanının" sözlərindən sonra "Elektron notariat" sözləri, üçüncü halda "müvafiq icra hakimiyyəti orqanının" sözlərindən sonra "Elektron icra" sözləri əlavə edilsin.

Maddə 3. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 12, maddə 740; 2002, N 12, maddə 706; 2003, N 1, maddə 23, N 8, maddə 428, N 12 (I kitab), maddələr 676, 698; 2005, N 1, maddə 1, N 6, maddə 462, N 8, maddə 684, N 10, maddələr 873, 905, N 12, maddə 1083; 2006, N 3, maddələr 223, 225, N 6, maddə 481, N 12, maddələr 1015, 1029; 2007, N 2, maddə 80, N 12, maddə 1203; 2008, N 3, maddə 158, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1047; 2009, N 1, maddə 5, N 2, maddə 56, N 3, maddə 160, N 7, maddə 519, N 12, maddə 947; 2010, N 4, maddə 276, N 6, maddə 485, N 10, maddə 840, N 11,

maddə 939; 2011, N 1, maddə 12, N 4, maddələr 245, 264, N 11, maddə 985, N 12, maddə 1100; 2012, N 1, maddə 4, N 6, maddələr 508, 518, N 7, maddə 646, N 10, maddə 947, N 12, maddələr 1216, 1227, 1229; 2013, N 3, maddə 213, N 5, maddə 474, N 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, N 12, maddələr 1485, 1504; 2014, N 1, maddə 6, N 5, maddə 468, N 6, maddələr 603, 605, N 7, maddələr 774, 780, N 11, maddələr 1345, 1370; 2015, N 12, maddə 1432; 2016, N 1, maddələr 15, 36, N 4, maddə 630, N 5, maddə 849, N 6, maddə 1014, N 10, maddə 1605, N 11, maddələr 1753, 1776, 1780, 1790, N 12, maddələr 2006, 2051; 2017, N 3, maddələr 337, 341, N 5, maddə 742, N 6, maddə 1028, N 7, maddə 1308, N 8, maddə 1506, N 12 (I kitab), maddə 2265; 2018, N 3, maddə 405, N 4, maddələr 639, 647, N 6, maddələr 1186, 1194, N 7 (I kitab), maddələr 1415, 1444, N 8, maddə 1675, N 12 (I kitab), maddə 2489; 2019, N 1, maddə 45, N 4, maddələr 571, 596, N 5, maddə 797, N 7, maddə 1176; Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1643-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.0.2-ci maddədə "notariat kontorları" sözləri "notariuslar" sözü ilə əvəz edilsin;

3.2. 10-cu maddənin adında "Notariat kontorları" sözləri "Notariuslar" sözü ilə əvəz edilsin;

3.3. 10.20-ci maddə aşağıdakı redaksiyada verilsin:

"10.20. Ərizələrin və ya digər sənədlərin başqasına verilməsi, habelə kağız və ya elektron daşıyıcıda olan ərizə və ya digər sənədlərin hazırlanmış elektron və kağız nüsxələri ilə eyniləşdirilməsi haqqında şəhadətnamələrin verilməsi (hazırlanmış hər səhifəyə görə) və bu Qanunun 10.1-10.19-cu maddələrində göstərilənlərdən başqa digər notariat hərəkətləri üçün - 5 manat".

Maddə 4. Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (I kitab), maddə 250, N 5, maddə 323; 2002, N 12, maddə 709; 2003, N 8, maddə 420; 2004, N 3, maddə 123, N 5, maddə 318, N 6, maddə 415, N 10, maddə 761, N 11, maddə 901; 2005, N 2, maddə 61, N 6, maddə 466, N 8, maddələr 684, 692, 693, N 11, maddə 996, N 12, maddə 1085; 2006, N 2, maddə 68, N 3, maddə 225, N 5, maddə 387, N 6, maddə 478, N 8, maddə 657, N 12, maddə 1005; 2007, N 2, maddə 80, N 6, maddə 560, N 8, maddə 745, N 10, maddə 937, N 11, maddə 1053, N 12, maddələr 1215, 1219; 2008, N 3, maddə 145, N 6, maddə 456, N 7, maddə 602, N 12, maddə 1049; 2009, N 2, maddə 47, N 5, maddə 295, N 6, maddə 404, N 7, maddə 517; 2010, N 2, maddə 75, N 3, maddə 171, N 4, maddələr 265, 266, 276; 2011, N 2, maddə 71, N 7, maddə 586, N 8, maddə 750, N 12, maddələr 1073, 1102; 2012, N 1, maddə 5, N 5, maddə 403, N 6, maddə 498; 2013, N 1, maddə 15, N 6, maddə 620, N 11, maddə 1280, N 12, maddələr 1469, 1478; 2014, N 2, maddə 96, N 7, maddə 768; 2015, N 3, maddə 254, N 5, maddə 512, N 7, maddə 814, N 10, maddə 1093; 2016, N 1, maddə 26, N 2 (I kitab), maddələr 186, 204, N 3, maddə 401, N 4, maddələr 640, 646, N 6, maddə 1005, N 7, maddə 1248, N 12, maddələr 1998, 2018; 2017, N 2, maddələr 151, 153, N 5, maddələr 703, 735, N 6, maddə 1035, N 11, maddə 1953, N 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, N 2, maddə 142, N 4, maddə 650, N 5, maddələr 845, 851, N 11, maddə 2212, N 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, N 1, maddələr 23, 50, N 5, maddələr 806, 812, 814, N 6, maddələr 994, 996, N 7, maddə 1202; Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1637-VQD Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 334.2-ci maddədə "notariat haqqında qanunla" sözləri "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin;

4.2. 362.3.2-ci maddədə "kontorlarının" sözü "ofislərinin" sözü ilə əvəz edilsin;

4.3. 1243.2-ci maddədə "kontoruna" sözü "ofisinə" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il.*
*N 1672-VQD*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 23, 44, N 3, maddələr 374, 389, N 4, maddələr 579, 581, 587, 595, N 5, maddələr 791, 800, 803, 804, 813, N 6, maddələr 992, 998, 1007, N 7, maddə 1193; Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1621-VQD, 1626-VQD nömrəli, 9 iyul tarixli 1636-VQD nömrəli, 12 iyul tarixli 1660-VQD və 1662-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 391-1-ci maddə əlavə edilsin:

"Maddə 391-1. Xüsusi notarius işləmiş şəxs tərəfindən notariat hərəkətləri barədə sənədlərin dövlət notariat arxivinə təhvil verilməməsi

Fəaliyyətinə xitam verilmiş xüsusi notarius tərəfindən aparılmış notariat hərəkətləri barədə sənədlərin bir ay müddətində dövlət notariat arxivinə təhvil verilməməsinə görə -

üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il.*
*N 1673-VQD*

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Psixoloji yardım haqqında" Azərbaycan

Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 586, N 12, maddə 835; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 237, 240, 244, N 8, maddə 463; 2004, N 6, maddə 399; 2005, N 4, maddə 278; 2006, N 11, maddə 929; 2007, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddələr 1197, 1218; 2008, N 6, maddə 462, N 7, maddələr 602, 607; 2010, N 3, maddə 171, N 4, maddə 275, N 7, maddə 591; 2011, N 2, maddələr 70, 71, N 6, maddə 473, N 7, maddə 600, N 12, maddə 1107; 2012, N 5, maddə 406, N 11, maddələr 1056, 1063; 2013, N 8, maddə 889; 2015, N 10, maddə 1107, N 11, maddə 1271; 2016, N 6, maddələr 981, 1000; 2017, N 6, maddə 1058, N 12 (I kitab), maddə 2268; 2018, N 5, maddə 881, N 7 (I kitab), maddə 1422, N 10, maddələr 1971, 1978, N 11, maddə 2225; 2019, N 4, maddələr 570, 579, N 5, maddələr 796, 812) 10.2.9-1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"10.2.9-1. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

Maddə 2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 7, maddə 797; 2014, N 11, maddələr 1351, 1357, N 12, maddə 1539; 2015, N 3, maddə 259, N 6, maddə 689, N 12, maddə 1436; 2016, N 2 (II kitab), maddə 214, N 6, maddələr 970, 988, 1008, N 7, maddə 1246, N 11, maddə 1794; 2017, N 7, maddə 1312, N 11, maddə 1963, N 12 (I kitab), maddələr 2218, 2257; 2018, N 1, maddə 32, N 3, maddə 386, N 6, maddə 1156, N 7 (I kitab), maddə 1434; 2019, N 1, maddə 23, N 7, maddə 1191; Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1659-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 86.0.16-cı maddədən "və psixoloji" sözləri çıxarılsın;

2.2. 87.1.17-ci maddə aşağıdakı redaksiyada verilsin:

"87.1.17. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

Maddə 3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 23, 44, N 3, maddələr 374, 389, N 4, maddələr 579, 581, 587, 595, N 5, maddələr 791, 800, 803, 804, 813, N 6, maddələr 992, 998, 1007, N 7, maddə 1193; Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1621-VQD, 1626-VQD nömrəli, 9 iyul tarixli 1636-VQD nömrəli, 12 iyul tarixli 1660-VQD və 1662-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 215-1-ci maddə əlavə edilsin:

"Maddə 215-1. Psixoloji yardım haqqında qanunvericiliyin pozulması

215-1.1. Psixoloji yardım almağa məcbur etməyə görə -

beş yüz manat məbləğində cərimə edilir.

215-1.2. Klinik psixoloji yardım göstərilməsi zamanı klinik (tibbi) psixoloq tərəfindən dərman preparatlarının təyin, o cümlədən insan orqanizmini mexaniki və ya digər təsirlərə (cərrahiyyə, lazer, ionlaşdırıcı şüa, ultrasəs, elektrokonvulsiv terapiya) məruz qoyan müalicə üsullarından istifadə edilməsinə görə -

fiziki şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz man-

atdan min manatadək məbləğdə, hüquqi şəxslər min iki yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

215-1.3. Psixoloji yardım sahəsində psixoloji yardım alan şəxslərin həyatına, sağlamlığına, psixoloji rifahına və ya ləyaqətinə zərər yetirə biləcək tədqiqatlar aparılmasına görə -

fiziki şəxslər yeddi yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər min iki yüz manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il*
*N 1677-VQD*

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair**

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədrlik edən), Sona Salmanova (məruzəçi-hakim), Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin hakimi Rəşad Mustafayev və Azərbaycan Respublikası Milli Məclisi Aparatının sektor müdiri Eldar Əsgərovun,

mütəxəssis Bakı Apellyasiya Məhkəməsinin hakimi Kamran Əkbərovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra - Cinayət Məcəlləsi) 320.1-ci maddəsinin dispozisiyasında nəzərdə tutulmuş hüquq verən rəsmi sənədi saxtalaşdırma müddəasının şərh olunmasını xahiş etmişdir.

Müraciətdən görünür ki, T.Alışanlının Cinayət Məcəlləsinin 29 və 320.1-ci maddələri ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə ittiham aktına əsasən o, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra - Dövlət İmtahan Mərkəzi) tərəfindən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə 26 iyul 2018-ci il tarixində keçiriləcək qəbul imtahanında abituriyent qismində iştirak edəcək H.Quliyevin əvəzinə iştirak etməsinə dair təkliflə razılaşaraq, onun şəxsiyyət vəsiqəsini və imtahana buraxılış vərəqəsini əldə edərək imtahana gedib həmin

sənədləri Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin (bundan sonra - Xüsusi Dövlət Mühafizə Xidməti) əməkdaşlarına təqdim etmişdir. Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları tərəfindən T.Alışanlının H.Quliyev olmadığı müəyyən olunaraq imtahan zalına buraxılmasının qarşısı alınmışdır. Bununla da, T.Alışanlı Dövlət İmtahan Mərkəzi tərəfindən H.Quliyevin adına kodlaşdırılmış, imtahan vermək və müvəffəqiyyət balı topladığı halda ali və ya orta ixtisas təhsili müəssisəsinə qəbul olmaq hüququ verən rəsmi sənəd olan cavab kartına sonuncunun adından məlumatları yazmağa yönəlmiş əməlini öz iradəsindən asılı olmayan səbəbdən başa çatdıra bilməyərək rəsmi sənəd olan cavab kartını istifadə etmək məqsədilə saxtalaşdırmağa cəhd etmişdir.

Müraciət edənin mövqeyinə görə, Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin dispozisiyasında göstərilən saxtalaşdırmanın hansı hərəkətləri ehtiva etməsi konkret göstərilməmişdir. T.Alışanlı imtahana daxil olmaq üçün istifadə etdiyi sənədlərdə (şəxsiyyət vəsiqəsi və imtahana buraxılış vərəqəsində) hər hansı düzəliş və dəyişiklik etməmiş, habelə o, imtahanda iştirak etsə idi, cavab kartına H.Quliyevə aid məlumatları yazacaq və onun yerinə imtahan suallarını cavablandıracaqdı. Formal yanaşıldıqda T.Alışanlının cavab kartına yazacağı məlumatların yanlış olmadığı, məhz həmin cavab kartına yazılmalı olan məlumatlar olduğu müəyyən edilir. Bu baxımdan, T.Alışanlının qanunazidd davranışı özünü başqa şəxs, yəni H.Quliyev kimi təqdim etməsindən ibarətdir və bu əməldə Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş saxtalaşdırmanın mövcudluğu suallar yaradır.

Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi T.Alışanlının qanunsuz olaraq başqa şəxsin adından həmin şəxsə aid olan məlumatların hüquq verən rəsmi sənədə daxil edilməsinin Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin dispozisiyasında göstərilən saxtalaşdırma hesab olunub-olunmamasına hüquqi aydınlıq gətirilməsini xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 71-ci maddəsinin VIII hissəsinə əsasən, heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır.

Azərbaycan Respublikasında cinayətə görə məsuliyyəti müəyyən edən yeganə qanunvericilik aktı Cinayət Məcəlləsidir. Həmin Məcəllənin 10.1-ci maddəsinə görə, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza, bu əməlin törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir. Törədildiyi zaman cinayət sayılmayan əmələ görə heç kəs cinayət məsuliyyətinə cəlb oluna və cəzalandırıla bilməz.

Cinayət Məcəlləsinin 3-cü maddəsinə əsasən, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır.

Beləliklə, cinayət hüququnun mühüm prinsiplərindən olan qanunçuluq prinsipinə uyğun olaraq yalnız Cinayət Məcəlləsində nəzərdə tutulan halda əməlin cinayət sayılmasına, belə əməli törədən şəxsin təqsirli hesab edilərək cinayət məsuliyyətinə cəlb edilməsinə yol verilir. Cinayət məsuliyyətinin əsasını cinayət tərkibinin əlamətlərini yaradan ictimai təhlükəli əməlin törədilməsi təşkil edir. Qanun cinayət sayılan əməlləri müəyyən edərkən həmin əməl üçün xarakterik olan əlamətləri də göstərir. Məhz bu əlamətlərin köməyi ilə törədilən hər hansı əməlin cinayət hüquq normasında nəzərdə tutulan cinayət olub-olmaması müəyyən edilir.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyinə görə, hər bir cinayət əməli araşdırılarkən onun tərkibinin düzgün müəyyən edilməsi və düzgün tövsif edilməsi cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsiri olub-olmamasını müəyyənləşdirməyə, habelə həmin cinayətə görə təqsirləndirilən şəxsə ədalətli cəza təyin edilməsinə yönəlmişdir. Əks hal təqsiri olmayan şəxsin məsuliyyətə alınmasına, yaxud da cinayət törətməkdə təqsirli olan şəxsin məsuliyyətdən kənarda qalmasına, cəzanın düzgün olmayan tətbiqinə səbəb ola bilər. Bu isə öz növbəsində Cinayət Məcəlləsinin əsaslandığı qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsiplərinin pozulmasına gətirib çıxara bilər (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair" 2011-ci il 17 mart tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin

hüquq verən və ya vəzifədən azad edən rəsmi sənədi saxtalaşdırma müddəasının şərh edilməsi üçün bu maddənin dispozisiyasında nəzərdə tutulmuş cinayət əməlinin tərkib əlamətlərinin araşdırılması vacibdir.

Cinayət Məcəlləsinin qeyd edilən maddəsinə əsasən, hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma əməli cinayət məsuliyyəti yaradır.

Göstərilən cinayət əməli "İdarəetmə qaydası əleyhinə olan cinayətlər" fəslinə aid edilmiş və cinayətin obyekti qismində dövlət idarəetmə fəaliyyəti ilə bağlı münasibətlər çıxış edir. Cinayətin predmetini isə hüquq verən və ya vəzifədən azad edən vəsiqə və ya digər rəsmi sənədlər, dövlət təltifləri, möhürlər, ştamplar və blanklar təşkil edir.

Bu əməlin predmetini təşkil edən rəsmi sənədin anlayışının və əlamətlərinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, sənədlərin idarəetmədəki əhəmiyyəti, sənəd dövriyyəsi sahəsinin genişlənməsi, yeni növ sənədlərin, o cümlədən elektron sənədin əmələ gəlməsi, cinayət qanununda rəsmi sənəd anlayışının və əlamətlərinin açıqlanmaması cinayətin tövsifində müəyyən çətinliklər yaradır.

Sənədin rəsmi sənədə aid edilməsi üçün o, bir sıra əlamətlərə malik olmalıdır. Bunun üçün sənəd səlahiyyətli şəxs tərəfindən tərtib və təsdiq edilməli, müəyyən edilmiş formaya uyğun olmalı, vacib rekvizitləri (möhürü, ştampı, imzanı və s.) əks etdirməlidir. Rəsmi sənədin əsas şərtlərindən biri də onun hüquqi əhəmiyyəti ilə bağlı olub təqdim edilə bilmə qabiliyyətinin, yəni sənəddə əks olunmuş məlumatın hüquq münasibətlərinə təsir etmək imkanının mövcud olmasını tələb edir.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın 24-cü bəndinə əsasən, sənəd, ona rəsmi xarakter və hüquqi qüvvə verilməsi məqsədilə rəsmiləşdirilməlidir. Rəsmiləşdirmə sənədin imzalanması, təsdiq edilməsi, qeydə alınması və ona möhür vurulması vasitəsilə həyata keçirilir.

Beləliklə, rəsmi sənəd hüquq əhəmiyyətli faktları müəyyən edən, dövlət tərəfindən səlahiyyət verilmiş hüquqi və (və ya) fiziki şəxslər tərəfindən tərtib və təsdiq edilən, qanunla müəyyən olunmuş formaya malik olan, qeydiyyat, ciddi hesabatlılıq və dövriyyəsi nəzarət sisteminin təsiri altına düşən sənəddir.

Cinayət Məcəlləsinin 320.1-ci maddəsində təsbit edilən cinayətin predmetini təşkil edən rəsmi sənəd hüquqlar verməli və ya vəzifələrdən (öhdəliklərdən) azad etməlidir. Hüquqlar verməyən və ya vəzifələrdən azad etməyən sənədin saxtalaşdırılması, hazırlanması və ya satılması Cinayət Məcəlləsinin həmin maddəsində nəzərdə tutulmuş cinayət tərkibini yaratmır. Beləliklə, hər hansı sənədin Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlinin predmeti qismində çıxış etməsi üçün onun hüquq münasibətlərinə (onların yaranmasına, dəyişdirilməsinə və xitamına) təsir etməklə hüquq və vəzifələr yaratması, eləcə də hüquqların həyata keçirilməsi və ya vəzifələrin icrasında müəyyən üstünlüklər, güzəştlər, imtiyazlar kimi hüquqi nəticələrə səbəb olma xüsusiyyətinin mövcudluğu mütləqdir.

Bu cinayət əməli obyektiv cəhətdən aşağıdakı hərəkətlər vasitəsilə törədilə bilər:

- hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi saxtalaşdırma;
- hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi qanunsuz hazırlama, habelə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama;
- hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi, habelə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı satma.

Saxtalaşdırma rəsmi sənədin məzmununun təhrif edilməsidir və saxta olmayan vəsiqəyə və ya rəsmi sənədə hər hansı vasitə ilə yanlış məlumatların daxil edilməsi, boş blankın belə məlumatlarla doldurulması, onun məzmununa dəyişikliklər edilməsi və s. üsullarla həyata keçirilir və bu hərəkətlərin nəticəsində həmin sənədin sahibinin və ya istifadəçisinin hüquqi vəziyyəti dəyişir.

Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməli formal tərkibli olmaqla, dispozisiyasında göstərilən hərəkətlərdən hər hansı birinin edildiyi andan başa çatmış hesab olunur.

Cinayətin subyekti qismində ümumi subyekt olmaqla 16 yaşına çatmış anlaqlı fiziki şəxs çıxış edə bilər.

Subyektiv cəhətdən isə cinayət birbaşa qəsdlə törədilir. Cinayət Məcəlləsinin 320.1-ci maddəsinə görə, məqsəd (rəsmi sənəddən, dövlət təltifindən, ştampdan, möhürdən və blankdan istifadə etmək) cinayət tərkibinin zəruri əlamətidir və həmin əməllərin törədilməsində belə məqsəd olmazsa, bu cinayətin tərkibini yaratmır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"-nın (bundan sonra - Qaydalar) 6.4-cü bəndində abituriyentin yol verməsi qadağan olunan hərəkətlər müəyyən edilmişdir. Belə hərəkətlərdən biri saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərməkdir.

Qaydaların 6.5-ci bəndinə əsasən, abituriyentin bu Qaydaların 6.4-cü bəndində göstərilən hərəkətlərə yol verməsi halları Dövlət İmtahan Mərkəzi tərəfindən aşkar edildikdə, onun müsabiqə (imtahan) nəticələri ləğv edilir. Bu qərardan inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra - İnzibati Xətalar Məcəlləsi) 181-ci maddəsində təhsil haqqında qanunvericiliyin pozulması hesab edilən konkret əməllərə görə məsuliyyət müəyyən edilmişdir. Lakin həmin maddədə inzibati məsuliyyət yaradan əməllər sırasında imtahanların keçirilməsi qaydalarının pozulması, o cümlədən imtahanda başqasının yerinə iştirak etmə və ya imtahana öz yerinə başqasını göndərmə əməli nəzərdə tutulmamışdır.

Beləliklə, Qaydalarla saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək qadağan edilsə də, İnzibati Xətalar Məcəlləsində qeyd edilən əməllər inzibati xəta kimi nəzərdə tutulmamışdır.

Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən ali və ya orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında abituriyent qismində iştirak edən şəxslərə doldurulmaq üçün təqdim edilən cavab kartları hər il texniki tapşırıqla forması təsdiq olunan, hər bir abituriyentin adına tərtib edilməklə kodlaşdırılan, boş blank formasında olan hüquq verən rəsmi sənəddir. Cavab kartının verilən sual kitabçasındakı sualların cavablandırılması məqsədilə müvafiq abituriyent tərəfindən doldurulması nəticəsində həmin abituriyentin bilik səviyyəsi müəyyən edilir və bunun nəticəsində o, ali və ya orta ixtisas təhsili müəssisələrində təhsil almaq hüququ əldə etmiş olur.

Cavab kartını müvafiq abituriyentin deyil, başqa şəxsin doldurması hüquq verən rəsmi sənədin saxtalaşdırılması kimi xarakterizə edilməlidir. Belə ki, cavab kartının başqa bir şəxs tərəfindən doldurulması nəticəsində cavab kartında müvafiq abituriyentin deyil, onun əvəzinə imtahanda iştirak edən şəxsin bilik səviyyəsinin nəticələri öz əksini tapır. Bu isə cavab kartının mahiyyət etibarı ilə saxtalaşdırılması deməkdir.

Digər tərəfdən, cavab kartının ikinci cədvəlində "özünüz haqqında məlumatı yazın, bəyannaməni oxuyun və imzalayın" qrafası mövcuddur ki, həmin hissədə abituriyent tərəfindən soyad, ad, ata adı, doğum yeri və doğum tarixi, ayı, günü, orta təhsil müəssisəsinin adı, yaşayış ünvanı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsinə dair məlumatlar şəxsən doldurulur, bundan sonra, həmin bənddə göstərilmiş "öz imzamla bu bənddə soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi göstərilən şəxs olduğumu təsdiq edirəm, əks təqdirdə qanunla müəyyən edilmiş məsuliyyəti daşıyacağam" məzmunlu bəyannamənin qarşısında imza edilir. Bu baxımdan, imtahanda başqasının əvəzinə iştirak edən şəxs cavab kartına qanunsuz olaraq başqa şəxsin adından həmin şəxsə aid məlumatları daxil etməklə və həmin abituriyentin əvəzindən imzalamaqla hüquq verən rəsmi sənədi saxtalaşdırma əməlini törətmiş olur.

Bu əməli törədərkən şəxsin məqsədi hüquqazidd vasitə ilə, yəni saxtalaşdırdığı cavab kartından istifadə etməklə başqasının ali və ya orta ixtisas təhsili müəssisəsinə qəbul olunmasını təmin edərək onun hüquqi statusunu dəyişdirməkdir. Şəxsin belə davranışı idarəetmə sahəsindəki münasibətlərə xələl yetirir, ictimai, habelə şəxsi mənafelərə zərər vurur. Belə ki, öz yerinə imtahana başqasını göndərən şəxs digər abituriyentlərlə ədalətsiz və qanunazidd rəqabət apararaq son nəticədə onların hüquqlarını pozur. Belə əməllər eyni zamanda inkişaf edən müasir cəmiyyət üçün faydalı mütəxəssislərin hazırlanması prosesinə maneçilik yaradır, dövlət

tərəfindən təmin edilən sosial ədalət prinsipinə və elmi dəyərlərə olan etimadı şübhə altına alır. Halbuki, təşkil edilən imtahanların məqsədi abituriyentlərin bilik səviyyəsini müəyyən etməklə onların əldə etdikləri nəticəyə uyğun olaraq sıralanması və müvafiq ali və ya orta ixtisas təhsili müəssisələrində yerləşdirilməsidir.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsinə əsasən, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu vətəndaşların təhsil hüququnu tam təmin etməklə, müvafiq təhsil səviyyəsinə uyğun olan təhsil proqramlarını daha yaxşı mənimsəmiş qabiliyyətli və hazırlıqlı abituriyentlərin ixtisası və təhsil müəssisəsini sərbəst seçimi əsasında, bu Qanunun 26.5-ci və 26.5-3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, müsabiqə yolu ilə həyata keçirilir.

Konstitusiyanın vətəndaşların vəzifələrinin əsasını müəyyən edən 72-ci maddəsinin II hissəsinə uyğun olaraq, hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Bu baxımdan, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, hər bir şəxs hər hansı hərəkəti edərkən həmin hərəkətin digər şəxslərin qanunla qorunan hüquqlarını, eləcə də qanunun tələblərini pozub-pozmadığını düşünməli və bununla bağlı məsuliyyətini dərk etməlidir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma rəsmi sənəd barəsində və onun üzərində elə qanunsuz hərəkətlərin edilməsini nəzərdə tutur ki, bu hərəkətlərin nəticəsində həmin sənədin sahibinin və ya istifadəçisinin hüquqi vəziyyəti dəyişir, o, əsassız və qanunsuz olaraq hər hansı hüquq əldə edir və ya vəzifədən azad edilir, eləcə də hüquqlarının həyata keçirilməsi və ya vəzifələrinin icrasında müəyyən üstünlüklər, güzəştlər, imtiyazlar əldə edir;
- Ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq hüququ verən rəsmi sənədə qanunsuz olaraq başqasının adından digər şəxs tərəfindən məlumatların daxil edilməsi, onun əvəzinə imzalanması və s. hərəkətlər rəsmi sənədin saxtalaşdırılması kimi qəbul olunmalı və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsi ilə tövsif edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma rəsmi sənəd barəsində və onun üzərində elə qanunsuz hərəkətlərin edilməsini nəzərdə tutur ki, bu hərəkətlərin nəticəsində həmin sənədin sahibinin və ya istifadəçisinin hüquqi vəziyyəti dəyişir, o, əsassız və qanunsuz olaraq hər hansı hüquq əldə edir və ya vəzifədən azad edilir, eləcə də hüquqlarının həyata keçirilməsi və ya vəzifələrinin icrasında müəyyən üstünlüklər, güzəştlər, imtiyazlar əldə edir.
2. Ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq hüququ verən rəsmi sənədə qanunsuz olaraq başqasının adından digər şəxs tərəfindən məlumatların daxil edilməsi, onun əvəzinə imzalanması və s. hərəkətlər rəsmi sənədin saxtalaşdırılması kimi qəbul olunmalı və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsi ilə tövsif edilməlidir.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 15 noyabr 2019-cu il*